

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev: Azərbaycanın rəmzi


5


# SƏS

№ 077 (7002)

3 may 2024-cü il.
Qiyməti 60 qəpik


## "Azərbaycanın beynəlxalq səviyyədə çox layiqli yer tutması sevinc doğurur"


2

**Prezident İlham Əliyev Rusiyanın Federasiya Şurasının sədr müavinini və Dövlət Dumasının komitə sədrini qəbul edib**

# Reallıqların fonunda yaranan REZONANS



4

## Üçüncü tərəfi olmayan görüş


7

## Gürcüstanda "xarici agent" üsyanı


10

## May ayında Əfv olacaq?


16

## Sürücülük imtahanı: şəffaflıq təmin olunurmu?


15

## Ver sözə ehya ki...


14

# “Azərbaycanın beynəlxalq səviyyədə çox layiqli yer tutması sevinc doğurur”

## Prezident İlham Əliyev Rusiyanın Federasiya Şurasının sədr müavinini və Dövlət Dumasının komitə sədrini qəbul edib

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 2-də Rusiya Federasiyası Federasiya Şurasının sədr müavini Konstantin Kosaçovu və Dövlət Dumasının MDB işləri, Avrasiya iqtisadiyyatı və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikovu qəbul edib. Konstantin Kosaçov Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun və Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının sədri Vyaçeslav Volodinin salamlarını dövlətimizin başçısına və birinci xanım Mehriban Əliyevaya çatdırdı.***

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Valentina Matviyenko və Vyaçeslav Volodinə çatdırmağı xahiş etdi.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yüksək səviyyədə təşkil olunması ilə bağlı dövlətimizin başçısına təbriklərini çatdıran Konstantin Kosaçov bu tədbirə böyük beynəlxalq marağın olduğunu vurğuladı. Qonaq Forumda Azərbaycan Prezidentinin dərin məzmunlu çıxışının önəmini qeyd etdi və bildirdi ki, dövlətimizin başçısının çıxışında Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, Qoşulmama Hərəkatının fəaliyyəti, neokolonializm və digər mövzular barədə fikirləri müasir şəraitdə böyük aktuallıq kəsb edir. Konstantin Kosaçov vurğuladı ki, Azərbaycanın beynəlxalq səviyyədə çox layiqli yer tutması sevinc doğurur və bu da öz növbəsində Azərbaycan-Rusiya ikitərəfli münasibətlərində vacib amillərdən birinə çevrilir. O, Prezident İlham Əliyevin bu yaxınlarda Moskvaya səfərinin çox uğurlu keçdiyini qeyd etdi. Konstantin Kosaçov Azərbaycanın iqtisadi, sosial və digər sahələrdə böyük uğurlar qazandığını deyərək Bakıya hər dəfə gələrkən paytaxtımızda gedən böyük inkişaf proseslərinin şahidi olduqlarını bildirdi.

Dövlətimizin başçısı beynəlxalq dialoq sahəsində mühüm platformalardan birinə çevrilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Rusiyanın yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunmasından məmnunluğunu ifadə etdi.



Prezident İlham Əliyev bu yaxınlarda Moskvaya səfərinə toxunaraq həmin səfərin çox səmərəli olduğunu və müttəfiqlik münasibətlərimizin strateji xarakterini bir daha nümayiş etdirdiyini vurğuladı.

Dövlətimizin başçısı Rusiya Prezidenti Vladimir Putin ilə birlikdə Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə Moskvada dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşünü xüsusi vurğuladı. Görüşdə hələ sovet dövründə bu layihənin əleyhinə çıxış edən bəzi qüvvələrin olmasına, çoxsaylı texniki, bürokratik və təbii maneələrə baxmayaraq, Ulu Öndər Heydər Əliyevin SSRİ rəhbərliyində çalışdığı zaman Baykal-Amur Magistralının həyata keçirilməsində müstəsna xidmətlərinin qeyd edildiyini məmnunluq hissi ilə bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Rusiyanın iki qonşu dövlət kimi bir-birinə qarşılıqlı dəstək, hörmət, ikitərəfli və çoxtərəfli məsələlərin həlli ilə bağlı maksimal qarşılıqlı fəaliyyət göstərdiklərini vurğuladı. Azərbaycan Prezidenti qeyd etdi ki, Rusiya təhlükəsizliyin təmin olunması məsələsində təkcə regionda deyil, daha geniş məkanda mühüm rol oynayır. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin daim yüksələn xətlə inkişaf etdiyini deyərək bunu Cənubi Qafqazda, daha da geniş coğrafiyada regional inkişafın mühüm amili kimi dəyərləndirdi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik rəhbərliyi zamanı, eləcə də hazırda bu təsisatın ”sədrlik üçlüyünə” daxil olduğu dövrdə bir çox mühüm təşəbbüslərlə çıxış etdiyini bildirərək, vacib məsələlərlə, o cümlədən neokolonializmlə bağlı böyük səylər göstərdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın həm ölkəmizdə, həm də ölkəmizdən kənarda bu mövzu ilə əlaqədar tədbirlər keçirildiyini bildirərək bundan sonra da neokoloniazatorların keçmişdə və müasir dövrdə törətdiyi cinayətlərin, onların digər ölkələrə və xalqlara qarşı həyata keçirdikləri ikili standartlarının aşkarlanması istiqamətində səylərini davam etdirəcəyini dedi.

Görüşdə iki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlığın hərtərəfli inkişafından məmnunluq ifadə olundu. Ötən il Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Rusiya Dövlət Dumasının inzibati binasında Dumanın sədri Vyaçeslav Volodinin iştirakı ilə sərginin təşkilinin əhəmiyyəti qeyd edildi.

Son dövrlərdə Azərbaycan ilə Rusiya arasında turizm sahəsində əməkdaşlığın inkişafından və Rusiyadan Azərbaycana gələn turistlərin sayının artmasından məmnunluq ifadə olundu, iki ölkənin şəhərləri arasında uçuşların sayının artması müsbət amil kimi qiymətləndirildi. Dövlətimizin başçısı bildirdi ki, COVID-dən öncəki turizm sayının və göstəricilərinin bərpa olunması artıq realdır.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında humanitar sahədə əməkdaşlığa toxunuldu, bu xüsusda ölkəmizdə rus dilinə göstərilən qayğı və məktəblərdə rus dilinin tədrisi vurğulandı. Görüşdə Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişaf perspektivləri ilə bağlı da fikir mübadiləsi aparıldı.

# ”Azərbaycan müsbət nümunəsi və yaşıl gündəliyi ilə iqlim dəyişmələri proseslərinə öz töhfəsini verir”

## *Prezident İlham Əliyev BMT Baş katibinin xüsusi müşavirini qəbul edib*



Azərbaycan Prezidenti İlham Əliyev mayın 2-də BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hartı qəbul edib. Selvin Çarlz Hart BMT-nin Baş katibi Antonio Quterreşin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Antonio Quterreşə çatdırmağı xahiş etdi. Qonaq BMT-nin Baş katibinin Azərbaycanda keçiriləcək COP29 tədbirində iştirak etmək niyyətində olduğunu bildirdi. Azərbaycan Prezidenti BMT Baş katibini COP29-da görməkdən məmnun olacağını dedi.

Dövlətimizin başçısı vurğuladı ki, COP29-a hazırlıq məqsədilə bütün lazımi və zəruri işlər plana uyğun davam etdirilir. Azərbaycan beynəlxalq ictimaiyyətlə və təsisatlarla COP29-un substantiv məsələləri üzrə danışıqlar və məsləhətləşmələr aparır.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın məqsədi dünya ölkələri arasında iqlim dəyişmələri mövzusunda həmrəyliyin və birgə fəaliyyətin gücləndirilməsidir. Bütün dünya ölkələri, o cümlədən Azərbaycan iqlim dəyişmələrinin mənfi təsirlərinə və fəsadlarına məruz qalıb. Belə ki, artıq son yeddi ildə Azərbaycanda quraqlıq müşahidə olunub, yağıntının miqdarı əhəmiyyətli dərəcədə azalıb. Bu il yağıntının miqdarının artması prosesi baş versə də, bütövlükdə Azərbaycan bundan əziyyət çəkir. Azərbaycan Prezidenti vurğuladı ki, Xəzər dənizinin suyunun çəkilməsi prosesi müşahidə olunur və bu da ciddi narahatlıq doğuran məqamdır.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan müsbət nümunəsi və yaşıl gündəliyi ilə iqlim dəyişmələri proseslərinə və iqlim fəaliyyətinə öz töhfəsini verir. Belə ki, neft və qaz ixrac edən Azərbaycan bu sahədə əldə olunmuş gəlirləri ölkənin inkişafına sərf etməklə uğurlu inkişaf modeli nümayiş etdirir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanda yaşıl keçid qarşıya hədəf kimi qoyulub və ölkəmizdə beynəlxalq tərəfdaşların da iştirakı ilə ciddi yaşıl enerji ixrac potensialı yaradılır.

Prezident İlham Əliyev qeyd etdi ki, bu günlərdə Azərbaycan, Özbəkistan və Qazaxıstanın Energetika və İqtisadiyyat nazirliklərinin birgə iştirakı ilə Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının Xəzərin dibi ilə Azərbaycana ötürülməsi və buradan da Avropaya ixrac edilməsi barədə yeni layihənin əsası qoyulub.

Qonaq vurğuladı ki, COP29 prosesində Azərbaycana zəruri dəstək vermək üçün BMT ailəsi Baş katib tərəfindən səfərbər edilib və xüsusi işçi qrup yaradılıb. Bu yaxınlarda BMT-nin İnkişaf Proqramının (UNDP) nümayəndə heyətinin Azərbaycana səfər edəcəyini deyən Selvin Çarlz Hart ölkəmizin təbii resurslardan əldə etdiyi gəlirləri effektiv şəkildə idarə etməsinin və sosial-iqtisadi inkişafa sərf etməsinin uğurlu nümunə olduğunu vurğuladı. O qeyd etdi ki, Azərbaycan, eyni zamanda, bu sahədə əldə etdiyi gəlirləri yaşıl enerji gündəliyinə də sərf edərək çox mühüm nümunə yaradır. Qonaq bu prosesdə BMT-nin Azərbaycana dəstəyini bir daha ifadə etdi.




## Britaniyalı nazir: **Birləşmiş Krallıq Azərbaycanın yaxın və etibarlı tərəfdaşıdır**

Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Nusrat Qani Birləşmiş Krallığı Azərbaycanın yaxın və etibarlı tərəfdaşı adlandırıb. AZƏRTAC xəbər verir ki, bu barədə nazir ”X” sosial şəbəkəsində paylaşım edib. Nusrat Qani Azərbaycanın Britaniyadakı səfiri Elin Süleymanov ilə görüşüb. Nazir bildirib ki, onlar COP29-u, regionda davamlı sülhü təmin etmək səylərini və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Nusrat Qani Bakıya səfər etməyi səbirsizliklə gözlədiyini də qeyd edib.

# VI Mədəniyyətlərarası Dialoq Forumu dünya mediasının diqqət mərkəzindədir

***Mayın 1-də Bakıda işə başlayan "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Prezident İlham Əliyevin tədbirin açılış mərasimindəki nitqində səsləndirdiyi fikirlər xarici mətbuatın diqqət mərkəzində olub.***

Xəbərlərdə dövlətimizin başçısının Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfələri və bu baxımdan Forumun əhəmiyyəti, ölkəmizin bölgənin inkişafında rolu, eləcə də regionda sülhün və sabitliyin möhkəmlənməsi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində atdığı addımlar barədə fikirləri xüsusilə diqqət mərkəzində saxlanılıb.

VI Mədəniyyətlərarası Dialoq Forumu və dövlətimizin başçısı fikirləri Türkiyə mətbuatının da diqqət mərkəzində olub. Qardaş ölkənin Anadolu Agentliyi, "Haber Global" televiziyası, "Akşam" qəzeti, "Haberler.com" portalı və digər KİV-lərində yer alan xəbərlərdə bu mötəbər tədbirə 100-dən çox ölkədən 700-dək mötəbər qonağın qatıldığı qeyd olunub.

Materiallarda Prezident İlham Əliyevin Forumun açılış mərasimindəki çıxışında səsləndirdiyi fikirlərə xüsusi diqqət yetirilərək, dövlətimizin başçısının Avropa ölkələrinin neokolonializm siyasətinə son qoyulmasının vacibliyi, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, o cümlədən Forumun mədəniyyətlərarası dialoqa mühüm töhfə olduğu vurğulanıb. Ukraynanın "Telegraf" və "Korrespondent" nəşrləri əsasən dövlətimizin başçısının Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar barədə fikirlərinə diqqət çəkib. Məqalələrdə Prezident İlham Əliyevin sülh müqavilesi üzrə danışıqların Azərbaycanın irəli sürdüyü təkliflər əsasında aparılması, eləcə də iki ölkə arasında demarkasiya və delimitasiya işlərinə başlanıldığı, xüsusən bu prosesin vasitəçilər olmadan həyata keçirilməsi barədə fikirləri diqqətə çatdırılıb.

İranın İRNA agentliyinin, "Entexab" qəzetinin yaydığı xəbərlərdə Prezident İlham Əliyevin beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının Ermənistanın otuz il davam etmiş işğala son qoyması üçün qəbul etdikləri qərar və qətnamələrin tələblərinin yerinə yetirilməsinə cəhd göstərmədikləri barədə sərt fikirlərinə geniş yer ayrılıb: "Həmin qətnamələri qəbul edənlər heç bir şey etmədilər ki, onlar icra olunsun. Odur ki, biz sülhə müharibə yolu ilə nail olmalı idik və 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində sərhədlərin delimitasiyası və demarkasiyası işlərinin vasitəçilərin iştirakı olmadan aparılması barədə fikirləri əks olunub.
















Rusiyanın TASS, "İnterfaks" agentliklərinin, "Vedomosti", "Qazeta.ru", "Profil" jurnalı, "Rossiya seqodnya" və digər kütləvi informasiya vasitələrində yayımlanan xəbərlərdə Azərbaycan Prezidentinin səsləndirdiyi fikirlərə önəm verilib. TASS dövlətimizin başçısının Avropanın bir neçə ölkəsi tərəfindən həyata keçirilən neokonializm siyasətinin qarşısının alınmasının vacibliyini vurğulamasına diqqət çəkib. Agentliyin xəbərində qeyd olunub ki, dövlət başçısı Azərbaycan cəmiyyətində sülhün, sabitliyin, həmrəyliyin mədəni müxtəlifliк və qarşılıqlı hörmətlə bağlı olduğunu xüsusi vurğulayıb.

Digər xəbərlərdə də Prezident İlham Əliyevin xüsusən Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, delimitasiya və demarkasiya işlərinin aparılması və digər məsələlərlə bağlı fikirlərinə yer verilib.

Gürcüstanın "resonancedaily.com", "imedinews.ge", "newshub.ge", "primetime.ge", "for.ge", "alt-info.ge" informasiya portalları, eləcə də "1tv.ge" televiziyası Azərbaycan Prezidentinin Avropanın bəzi ölkələrinin digər xalqlara müstəmləkə kimi yanaşması faktı ilə bağlı fikirlərini geniş işıqlandırıb. Prezident İlham Əliyevin çıxışına istinadla yayılan məlumatlarda deyilir: "Biz imkan verə bilmərik ki, XXI əsrdə Avropanın bəzi ölkələri digər xalqlara müstəmləkə kimi yanaşsın. Biz səsimizi ucaltdıqda - Qoşulmama Hərəkatına sədrliyimiz zamanı bu məsələni qaldırdıqda bu, onunla bağlı deyildi ki, hansısa ölkəyə qarşı idik. Biz, sadəcə ədalətə, beynəlxalq hüquqa bağlı idik. Dünya iyrənc neokolonializm praktikasına göz yummalı deyil. Bu, assimilyasiyaya, məcburi assimilyasiyaya aparır. Bu, Fransanın 10-dan artıq dənizaşırı ərazisində baş verir. Buna son qoyulmalıdır".

Qətər Xəbər Agentliyinin yaydığı xəbərdə Bakıda işə başlayan üçgünlük Forum çərçivəsində təşkil olunacaq 4 plenar sessiya və 12 panel iclasında təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, qanunsuz miqrasiya və digər mühüm mövzuların müzakirə olunduğu qeyd edilib. Məqalədə dövlətimizin başçısının Forumun açılış mərasimindəki çıxışında Azərbaycanın əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkan olması, çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik Azərbaycan cəmiyyətinin əsrlər boyu tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qorumasına da fikirləri diqqətə çatdırılıb.

Belarus mətbuatı da VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu gündəmdə saxlayıb. BELTA-da yayımlanan xəbərdə Belarus nümayəndə heyətinin də Foruma qatıldığı vurğulanıb. Qeyd edilib ki, mühüm məsələlərlə bağlı ciddi fikir mübadiləsinin aparıldığı Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycan Prezidenti İlham Əliyevin açılış mərasimində qeyd etdiyi kimi, "çox mühüm beynəlxalq platformadır və orada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur".

Bu ölkənin "Sb.by" portalının yaydığı xədə ərazilərimizin böyük hissəsini azad etdik. Ötən ilin sentyabr ayında isə biz öz ərazi bütövlüyümüzü, suverenliyimizi tam şəkildə bərpa etdik. İndi isə biz münaqişədən sonrakı vəziyyətdəyik". Yazılarda dövlətimizin başçısının iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində müsbət tendensiyaların müşahidə olunmasını qeyd etməsi xüsusi vurğulanıb.

Türkmənistanın "Central Asia" media platformasının yaydığı xəbərdə də Prezident İlham Əliyevin Forumun açılış mərasimində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində müşahidə olunan müsbət tendensiya barədə fikirləri diqqətə çatdırılıb.

***Ermənistanda aranı qızışdırmaq istəyən qüvvələr Azərbaycanla danışıqlardan narahatlıq keçirdiklərini açıq şəkildə ifadə edirlər. Onlar Azərbaycan və Ermənistan arasında sülhün, dinc və yanaşı yaşamağın mümkünsüzlüyü barədə də fikir förmalaşdırmağa çalışırlar. Reallıqları, məhz Azərbaycanın yaratsığı reallıqları görməməzliyə vurmağa çalışanlar hətta həqiqətləri gizlətməyi belə məqbul hesab edirlər. Belə çıxır ki, yeni reallıqlar artıq əhəmiyyətli dərəcədə rezonans yaradıb.***




# Reallıqların fonunda yaranan REZONANS

## Sülhün bərqərar olması, əmin-amanlığın təmin olunması, normal qonşuluq şəraitində yaşanılması, təhlükəsizlik, sabitlik arzuolunandır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Sülh və Qlobal Təhlükəsizlik Naminə Dialoq" adlı VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında səsləndirdiyi son bəyanatları bu dəfə də ara qarışdırmaq niyyətində olan hayların yuxusunu ərşə çəkib. Ölkə rəhbərimizin məhz Ermənistanla sülh prosesində müsbət tendensiya olduğunu qeyd etməsi bəzilərinin kürkünə birə salıb. "Azərbaycan sülhə nail olmaq üçün fəal işləyir. Danışıqlar Azərbaycanın hazırladığı sənəd əsasında aparılır", ifadəsi isə ümumiyyətlə, sülh prosesini qəbul etməyənlər arasında bərk qıcıq doğurub. Onlara məxsus olan paxıllıq hissini də duymamaq mümkün deyil. Üstəlik, Azərbaycanda məhz sülh prosesi ilə bağlı müsbət əhval-ruhiyyənin olması belə onları tamamilə hövsələdən çıxarıb və artıq bu səbəbdən də ağıllarına gələni sayıqlayırlar. Həm də Azərbaycan Prezidentinin fikirlərindən tamamilə özlərini itirir, paxıllıq hissindən dolayı da əsəblərini cilovlaya bilmirlər. "Biz indi sülh prosesində müsbət tendensiya görürük. Sərhədin delimitasiyasına başlanılıb. Təkcə delimitasiya deyil, həm də sərhədin demarkasiyasına başlanıb", deyə cənab Prezident İlham Əliyevin bəyan etməsindən qıcıqlanan haylar etiraf da edirlər ki, həqiqətən də Azərbaycan üçün tendensiya çox müsbətdir. Maraqlıdır, belə bir tendensiya niyə də müsbət olmamalıdır? Sual olunur ki, niyə onlar üçün, elə həm də Ermənistan üçün də tendensiya müsbət sayılmır axı? Niyə ermənilər bu prosesdən, sülhə aparan addımlardan narahat olmalıdırlar? Bəli, Azərbaycan ictimaiyyəti sülh prosesinin getdikcə yaxınlaşdığını hiss etdiyinə görə çox sevinir. Əvvəla ona görə ki, xalqımız sülhsevər xalqdır. Həm də axı, sülhün bərqərar olması, daimi əmin-amanlığın təmin olunması, normal qonşuluq şəraitində yaşanılması, təhlükəsizlik, sabitlik arzuolunandır. Normal cəmiyyət də belə bir şəraitdə yaşamağa üstünlük verir, bunu arzulayır. Bəs onda nəyə görə Ermənistanda bəzi qüvvələr bundan narahatlıq keçirməyə başlayırlar və görəsən reallıqlar niyə Ermənistanda daha bir rezonans doğurub axı?

## Regionda, Cənubi Qafqazda təhlükəsizliyin təminatını vacib hesab etmək belə olur

Cənab Prezident İlham Əliyev bu dəfə də vurğulayıb ki, sərhədin delimitasiyası və demarkasiyası iki ölkə arasında əldə olunmuş razılaşmalar əsasında, heç bir vasitəçi olmadan həyata keçirilir. Yəni, ölkə rəhbərimiz razılaşmaların iki ölkə arasında, vasitəçi olmadan əldə olunmasının üstünlüyünü ifadə edir və haqlıdır da. Çünki kimlərinsə vasitəçiliyinin nə demək olduğunu hər birimizi yaxşı başa düşürük. Ən azından illər boyunca bununla bağlı əldə etdiyimiz təcrübələrimiz var və bilirik ki, bunun heç bir xeyri yoxdur, əksinə, ziyanı var, yaxud ola bilər. Bu barədə elə dövlətimizi başçısı da çox gözəl bir ehyam da vurub. "Bu bir daha onu göstərir ki, vasitəçilərə, xüsusən də öz maraqlarını rəhbər tutanlara ehtiyac yoxdur. Onlar kömək etmək istəmirlər, siyasi və iqtisadi maraqları naminə regiona nüfuz etmək istəyirlər. Onlar atəşi yenidən yandırmaq istəyirlər. Biz Cənubi Qafqazda bunun baş verməsinə imkan verməyəcəyik", deyə bəyan edən ölkə rəhbərimiz açıq şəkildə bildirir ki, vasitəçilərin niyyəti kömək etmək yox, öz maraqlarından çıxış edərək, regionada yeni od, alov, atəş yaratmaqdır ki, buna da imkan verilən deyil. Bəli, bu mövqe regionun təhlükəsizliyinin, stabilliyinin qorunması üçün olan ən doğru mövqedir. Regionda, Cənubi Qafqazda təhlükəsizliyin təminatını vacib hesab etmək belə olur. Sual olunur ki, axı niyə bəzi ermənilər bundan narazıdırlar? Bunun nəyi onları qane etməyə bilər axı? Təbii ki, kimlərinsə, yəni üçüncü tərəfin iştirakı dedikdə ermənilər indi öz maraqlarından çıxış edən hansısa üçüncü tərəfi, məsələn, Fransa kimi bir ölkəni nəzərdə tuturlar. Yəni, ermənilər üçün sülh, sabitlik, stabillik yox, düşmən bəllədikləri Azərbaycan tərəfinin kimlərsə tərəfindən şantaj, təhdid edilməsi üçün üçüncü tərəfin iştirak etməsi maraqlı görünür. Bununla yanaşı, haylar ancaq ianələr, maddi yardımlar, dəstək haqqında düşünürlər. Onlar hansısa tərəfin iştirakına ən azından maddi qazanc əldə etmək vasitəsi kimi baxırlar və elə zənn edirlər ki, bütün dünya ölkələri haylara, Ermənistana pul, vəsait köçürməyə sanki borcludur və elə bil ikitərəfli danışıqlar onları bundan məhrum etmək deməkdir.

## Azərbaycanın yaratdığı reallıqların qorxusu çoxlarının canına üşütmə salıb

Rəsmi Bakının mövqeyi hansısa ölkələri qane etməyə bilər. Əslində, Azərbaycanın heç bir ölkədən asılı olmaması dünyanın bir çox inkişaf etmiş ölkələrini qətiyyən qane etmir. Məsələn, dünyanın istənilən ölkəsində istədiyi qərarı verə bilən ABŞ bunu Azərbaycanda edə bilmədiyindən çox narahatdır. Elə məhz buna görə də ölkəmizə qarşı aqressiyasını da başa düşmək çətin deyil. Bununla belə, nəinki ABŞ, hətta Fransa kimi bir ermənipərəst Avropa ölkəsi də Azərbaycanın iradəsinə qarşı çıxa bilmir. Nəticədə də reallıqlarla barışmaq məcburiyyətində qalır. Yəni, reallıqları qəbul etməli olur. Rəsmi Paris əvvəlcə öz səfirini Bakıdan geri çağırırsa da, sonra onu ən qısa zamanda qaytarır, çünki bunun mənasız olduğunu anlayır, qarşı-qarşıya gəlməkdən çəkinir. ABŞ indi artıq Azərbaycanın sülh təşəbbüsünü alqışlamaqdan başqa çarə görmür. Rəsmi Vaşinqton Azərbaycanın bütün sülh təşəbbüslərini dəstəkləməyə hazır olduğunu bəyan edir və əksini heç iddia da edə bilmir. Avropa İttifaqı özü də prosesə dəstəyini ifadə edir. Deməli, bütün dünya qətiyyən Azərbaycanın sülh təşəbbüsünə qarşı çıxa bilmir. Hətta iki ölkə arasındakı danışıqları əksər ölkələr, beynəlxalq qurumlar dəstəklədiklərini bəyan edirlər. Amma Ermənistan yenə də narazıdır və yenə də nədənsə narahatlıq var və reallıqların qorxusundan yaranan rezonans artıq müşahidə edilməkdədir.

Maraqlı olan odur ki, ABŞ boyda böyük bir ölkə, Fransa kimi məkrli bir Avropa ölkəsi reallıqlar qarşısında çarəsizliyini görür, qəbul edir, Azərbaycanın haqlı mübarizədə iradəsinə, sülh təşəbbüslərinə qarşı çıxmaq istəmir, amma Ermənistan kimi cırtdan bir dövlət bununla razılaşa bilmir. Dünyanın ən "yekə" ölkələri, ən inkişaf etmiş, ən qüdrətli, ən varlı, ən güclü iqtisadiyyata malik olan məmləkətlətləri məhz Almaniyanın timsalında Azərbaycan həqiqətlərinə qarşı gəlmir, bununla barışır, amma səfalət içərisində olan, gözünü kimlərinsə ianələrinə dikən rəzil bir ölkə olan Ermənistan hələ də reallıqları qəbul etməkdə çətinlik çəkir. Avropanın ən qabaqcıl ölkələri rəsmi Bakının sülhsevər siyasətini də, diplomatik uğurlarını da həzm edir, Cənubi Qafqazın ən səfil ölkəsi olan Ermənistan bunu həzm edə bilmir. Hayların müxalifət düşərgəsi, revanşistlər, tarixin zibilliyindən boylanan Qarabağ klanı Azərbaycanın yaratdığı reallığa baxa bilmir. Onların gözü görsə də, reallıqları dərk etsələr də bunu yaxına belə buraxmaq istəmirlər. Magistral yolda, kəndlərdə, paytaxt İrəvanda olmaqla, harda gəldi etiraz aksiyası keçirməklə, öz narazılıqlarını ifadə etməklə, reallıqlara qarşı çıxırlar. Deməli, belə çıxır ki, Azərbaycanın yaratdığı reallıqların qorxusu çoxlarının canına üşütmə salıb. Elə Ermənistanda rezonans da məhz həmin reallıqların qorxusu fonunda yaranıb.

***İnam Hacıyev***

# Heydər Əliyev: Azərbaycanın rəmzi





***Ümummilli Lider Heydər Əliyev ona görə Azərbaycanın rəmzinə çevrilmişdir ki, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.***

## Qeyri-adi idarəçilik bacarığı və polad iradə

Tarixi faktlara nəzər salarkən görmək olur ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Ümummilli Lider özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Xalqın taleyinin bu mərhələsində - azadlıq və müstəqillik duyğularının artdığı o illərdə Ulu Öndər həmin duyğuları alovlandırdı ki, bu da illər sonra müstəqilliyimizin bərpası ilə nəticələndi.



Hələ 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərkən ölkənin ictimai-siyasi həyatında anarxiya və hakimiyyətdaxili intriqalar baş alıb gedirdi. Azərbaycan sosial-iqtisadi cəhətdən durğunluğun və dərin böhranın yaşandığı geridə qalmış ölkə idi.

Heydər Əliyev dövlət təhlükəsizliyi sistemində işlədiyi ilk gündən əldə etdiyi imkandan istifadə edib böyük vətənpərvərlik və uzaqgörənlik ruhunda öz doğma xalqına xidmət etmişdir. DTK-nın rəhbər strukturlarındakı fəaliyyəti dövründə bu orqanın azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərən Ümummilli Liderimiz respublikaya rəhbərliyə başlayan kimi qısa müddətdə idarəçilik sistemini xeyli möhkəmlətmiş, sosial-iqtisadi tədbirlər həyata keçirmiş, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlamışdır. Aparılan ardıcıl mübarizə nəticəsində qısa müddətdə Azərbaycanda əlverişli sosial-iqtisadi və mənəvi-siyasi şərait yaradılmışdır.

1970-1980-ci illərdə neft-qaz hasilatı sənayesinə və neftayırma zavodlarının yenidən qurulmasına 4 milyard manatdan çox vəsait qoyulmuşdur. Nəticədə, 1980-ci ilərin sonunda Azərbaycan keçmiş SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsini verir, neft maşınqayırma sahəsində ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. 1969-1982-ci illərdə 213 iri sənaye müəssisəsi tikilmiş, sənaye məhsulu istehsalı 2,7 dəfə artaraq əvvəlki 50 ildə olduğu qədər - 101,5 milyard manatlıq məhsul istehsal edilmiş, Azərbaycan sənaye məhsulunun istehsal artımına görə SSRİ-də birinci yerə çıxmışdı. Bakı SSRİ-nin əsas sənaye mərkəzlərindən və beş böyük şəhərindən birinə çevrilmişdi. Azərbaycanın 120-dək müəssisəsində istehsal olunan 350 növ məhsul dünyanın 80 ölkəsinə satılırdı. İxracla idxal arasında 1,5-2 milyard manatlıq müsbət saldo yaranmışdı.

Meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği (2 milyard manat) əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə çox olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmiş, məhsul artımı 11,1 milyard manata çatmışdı. Bu dövrdə 7,7 min kilometr şose, 260 kilometr dəmir yolları çəkilmişdi. 1985-ci ildə Bakı limanından dünyanın 120 limanına gəmilər səfər edir, paytaxtdan respublikanın 12, SSRİ-nin 80 şəhərinə təyyarələr uçurdu. Bakı metropoliteninin 8 yeni stansiyası istismara verilmişdi.

1969-1982-ci illərdə 18,5 milyon kvadratmetr mənzil sahəsi (376,1 min yeni mənzil) istifadəyə verilmiş, 2,2 milyondan çox adam, yəni respublikanın hər üç sakinindən biri yeni evdə məskunlaşmışdı. 1970-1982-ci illərdə iqtisadiyyatın inkişafına 23,9 milyard manat vəsait qoyulmuşdu ki, bu da əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. Bu zaman milli gəlirin yalnız artım hissəsi 5 milyard 370 milyon manat təşkil etmiş, onun adambaşına düşən hissəsi 2 dəfə artmış, 633 min yeni iş yeri yaradılmışdı.

Məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 6 yeni ali məktəb yaradılmışdı. 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 15 mindən artıq azərbaycanlı gənc təhsil alaraq yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmışdı. 1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəb açılmış, 1970-80-ci illərdə SSRİ-nin ali hərbi məktəblərində iki mindən çox azərbaycanlı zabit hazırlanmışdı. Qısa müddətdə SSRİ müdafiə sənayesinin Azərbaycanda on bir böyük zavodu tikilmişdi.

1970-1980-ci illərdə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 44 muzey, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi. 1980-ci ilin sonunda respublikada artıq ümumi kitab fondu 31,7 milyon nüsxə olan 3858 kütləvi kitabxana, 3212 klub və mədəniyyət evi, 2300 kino qurğusu var idi. 21 min yerlik xəstəxana və poliklinikalar istifadəyə verilmişdi.

1978-ci il Konstitusiyasında Azərbaycan dilinin ali səviyyədə rəsmi dil statusu alması, oncildlik Azərbaycan Sovet Ensiklopediyasının, üççildlik "Müasir Azərbaycan dili" dərsliyinin işıq üzü görməsi, "Türkologiya" jurnalının nəşrə başlaması, Azərbaycan ziyalılarının imperiyanın təqiblərindən qorunması, görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət mükafatlarının, fəxri adların verilməsi, onların yubileylərinin keçirilməsi, abidələrinin qoyulması, milli ruhlu tarixi filmlərin çəkilişi, mədəniyyət kollektivlərinin və rəssamların qastrol və sərgilərinin təşkili və sair bu kimi faktlar 1970-80-ci illərdə milli-mənəvi həyatın və milli özünüdərk prosesinin sürətli dirçəlişini səciyyələndirirdi.

Beləliklə, Ümummilli Liderimizin sözləri ilə desək: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

## Azərbaycanda Yeni Azərbaycan

Bütün bu göstəricilər Ulu Öndərin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə də daha fərqli bir şəkildə əldə olunmuşdur. Belə ki, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan yenidən qurulmuş, Azərbaycanda Yeni Azərbaycan yaradılmışdır.

Məlumdur ki, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyət dövründəki kimi olacaqdı.

Bəli, böyük çətinliklə bərpa olunan müstəqilliyimiz Ulu Öndərin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Ardı Səh. 6

# Heydər Əliyev: Azərbaycanın rəmzi

Əvvəli Səh. 5

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir.

Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.







Heydər Əliyev əsl azərbaycanlı, xalqını canından artıq sevən, vətənpərvər, həyatının sonunadək bu xalqın, bu millətin yolunda cəfa çəkən böyük şəxsiyyətdir. Elə buna görə də xalq Onu özünə Ümummilli Lider seçdi. Taleyini Ona tapşırdı. Müstəqilliyini Ona etibar etdi. Beləliklə də, müstəqilliyimiz təhlükədən, itirilməkdən xilas oldu. Torpaqlarımızın daha da geniş miqyasda itirilməsinin qarşısı alındı. Ölkəmiz dünyada tanındı, dünya dövlətləri ilə iqtisadi əlaqələr quruldu. 70 illik imperiya məngənəsindən qurtulan, bütün sahələrdə tənəzzülə uğrayan Azərbaycanda yeni bir Azərbaycan quruldu. Azərbaycan, bütövlükdə, Ulu Öndərimizin əsərinə çevrildi.

## Ötən 20 il: **Ümummilli Liderin müəyyən etdiyi strategiya**

Ulu Öndərin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və müasir dövrə uyğunlaşdıran Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı Lider olduğu bir daha təsdiqini tapır. Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi aləmində özünəməxsus yeri ilə seçilir. Bütün dünya dövlətləri ölkəmizin başçısı ilə hesablaşır, ona hörmət və ehtiramla yanaşır.

2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət də təkcə Ulu Öndərin deyil, bütövlükdə, Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu Öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Zaman və tarix sübut edib ki, Ulu Öndərimiz siyasətdə heç zaman yanılmayıb. Ötən 20 ildə bunun bir daha şahidi olduq. Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə şahid olduq. Sıravi vətəndaşdan tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan böyüyə hər kəsə qayğıda, ehtiramda gördük. Ölkə rəhbərinin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına qayğısında gördük. Ötən 20 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsində, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsində gördük.

Bəli, ordu quruculuğunu xüsusilə vurğulamalıyıq. Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayıb. Onları ən çox düşündürən yurd yerlərinə qovuşmaq idi. Nə qədər inkişaf etmiş bir ölkədə yaşasalar da, hərtərəfli qayğı ilə əhatə olunsalar da, qaçqınlıq və köçkünlük acısı, yurd həsrəti onları tərk etmirdi. Onlar öz torpaqlarını istəyirdilər. Qarabağ Azərbaycanın yarası idi. Bu yara sağalardısa, Azərbaycan tam ola bilərdi. Bütün bunlar isə dövlətimizin başçısının daim diqqətində olan məsələlər idi.

## Ulu Öndərin arzuları reallaşdı

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycan etibarlı əllərdədir.

1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizdir. O mənada ki, xalq çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır. Xalq bir gün öz əzəli torpaqlarını da geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi Liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin",- deyən dövlət başçısının əzmini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi. 10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə oldu. 2023-cü ilin 20 sentyabrında həyata keçirilən antiterror tədbirləri isə ərazi bütövlüyümüzün tam bərpası ilə nəticələndi.

Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu isə ölkəmizdə hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

Tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri və ölkəmizin bugünkü inkişafı ötən 20 ilin hər anında Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidiyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Bəli, qürur duyuruq ki, Ulu Öndərimizin siyasi yolu uğurla davam etdirilir.

***Mətanət Məmmədova***

# Üçüncü tərəfi olmayan görüş

*Alma-Atada Ermənistan-Azərbaycan danışıqlarına yeni baxış*

***Mayın 1-də Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Almatıda sülh danışıqlarının aparılması ilə bağlı razılığa gəldiyini açıqlayıb. Bu, reallığın təsbitidir: indi nə Rusiya, nə də Qərb düşmənçilikdən əl çəkməyə çalışan qonşuların mürəkkəb ikitərəfli münasibətlərində fəal vasitəçi rolunu oynaya bilməz. Lakin Bakıdan və onun sadiq müttəfiqi Türkiyədən fərqli olaraq, İrəvan Azərbaycanla diplomatik rəqsdə tənha görünür: Moskva ilə siyasi münasibətlər sıfır səviyyəsindədir və pisləşməkdə davam edir, Qərblə yaxınlaşma isə hələlik təhlükəsizlik təminatları gətirməyib.***



"Mən Azərbaycan Respublikası və Ermənistan Respublikasının Qazaxıstan tərəfinin təklifi ilə xarici işlər nazirləri arasında iki dövlət arasında sülh müqaviləsinin hazırlanmasına dair danışıqların aparılmasına dair razılığını alqışlayıram. Bu mühüm hadisənin 1991-ci ilin dekabrında MDB ölkələrinin müstəqil inkişafının əsaslarını möhkəmləndirən və dövlətlərarası sərhədlərin müəyyən edilməsi prinsiplərini təsdiq edən tarixi Alma-Ata Bəyannaməsinin imzalandığı Almatıda baş tutması rəmzidir". Bu sətirlər Qazaxıstan Prezidentinin mayın 1-də rəsmi saytında dərc edilmiş bəyanatdandır.

Görünür, Qazaxıstan Xarici İşlər Nazirliyinin keçmiş rəhbəri Kasım-Jomart Tokayev köhnə günləri silkələmək qərarına gəlib - o, diplomatiya ilə məşğul olub. Martda Qazaxıstan prezidenti Bakıya, apreldə isə İrəvana səfər edib. Azərbaycan lideri İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla görüşləri zamanı cənab Tokayev Qazaxıstanı tərəflər arasında sülh danışıqları üçün platforma kimi təklif edib.

Bakı və İrəvan uzun müddətdir ki, sülh müqaviləsi üzərində işləyirlər. Amma Ermənistan hələ də sənədi imzalamaqdan uzaq görünür. Aprelin 26-da Ermənistan Xarici İşlər Nazirliyi azərbaycanlı həmkarlarından mətnlə bağlı əlavə təkliflər aldığını bildirib. Və bu, ilk mübadilə deyil. Bu sülh yolunda diplomatik mənzərə artıq bir neçə dəfə dəyişib. 2023-cü il ərzində Rusiya və Qərb əsas vasitəçi statusu uğrunda bir-biri ilə rəqabət aparıb. Azərbaycan və Ermənistan xarici işlər nazirləri ya Rusiya ərazisində, ya da Qərbdə - Brüsseldə və ya Vaşinqtonda görüşüblər. Ötən ilin sentyabrında Azərbaycanın Qarabağdakı hərbi əməliyyatından sonra bölgə tamamilə Bakının nəzarətinə keçdikdən sonra hər şey dəyişib. İrəvan Moskva ilə münaqişəyə girməyə və ondan uzaqlaşmağa başlayıb. Bakının timsalında Qərblə münasibətlərdə də oxşar hadisə baş verib. Nəticədə Azərbaycan Ermənistanla sülh danışıqlarının ikitərəfli olmasında təkid etməyə başlayıb və məqsədinə çatıb.

"İndi təkcə sərhədlərin delimitasiyası ilə bağlı deyil, həm də sülh müqaviləsi ilə bağlı bütün danışıqlar bu formatda aparılır. Onlarda heç kim iştirak etmir. Ermənistan və Azərbaycan üçüncü ölkələrdə qapalı formatda görüşür - bu məsələ ilə bağlı heç bir ictimai məlumat yoxdur", - İrəvan Regional Demokratiya və Təhlükəsizlik Mərkəzinin rəhbəri Tiqran Qriqoryan müsahibəsində bunları qeyd edib.

Almatıda növbəti tur eyni formatda keçiriləcək. Düzdür, Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ararat Mirzoyan və Ceyhun Bayramovun görüşünün vaxtı hələ açıqlanmayıb. Ancaq görüşün tarixi texniki detaldır. Əsas odur ki, nə Rusiya, nə də Qərb bu prosesdə iştirak etmir.

Bu, Bakı üçün vacibdir, çünki Azərbaycan tərəfi Ermənistanla müharibədə qalib mövqedən, yəni güclü mövqedən danışıqlar aparır. Bunu, əslində, bu yaxınlarda Ararat Mirzoyan "Əl-Cəzirə"yə müsahibəsində etiraf edib. "Qonşularımız sülh müqaviləsi kontekstində Alma-Ata Bəyannaməsinə, iki ölkə tərəfindən imzalanacaq daha əhatəli sənədə istinad etməkdən çəkinməkdə davam edir", - deyə erməni diplomatiyasının rəhbəri giley-lənib. Keçmiş SSRİ respublikaları tərəfindən imzalanmış 1991-ci il Alma-Ata Bəyannaməsində xatırladılır ki, onlar bir-birlərinin ərazi bütövlüyünü və mövcud sərhədlərin toxunulmazlığını tanıyırlar.

Ermənistan indi bir sıra ərazilərini Azərbaycana verməklə sərhəd məsələsini həll edir. Bununla bağlı respublikada vaxtaşırı müxtəlif ölçülü etiraz aksiyaları keçirilir. Nikol Paşinyan bunu davamlı sülhün əldə edilməsinin zəruriliyi ilə izah edir. Eyni zamanda, İrəvan imkan daxilində Qərblə münasibətləri gücləndirməyə və inkişaf etdirməyə çalışır.

Aprelin 30-da Nikol Paşinyan Ermənistan paytaxtında Avropa Komissiyasının Genişlənmə və Qonşuluq Siyasəti üzrə baş direktoru Gert Jan Koopman ilə görüşərək Ermənistan və Aİ üçün əlaqələrin inkişaf etdirilməsinin vacib olduğunu bildirib. Bu, Aİ ilə yaxınlaşma xəttinin davamıdır, lakin yaxınlaşma perspektivləri qeyri-müəyyən olaraq qalır. Hazırda İrəvan və Brüssel arasında əsas ikitərəfli sənəd Hərtərəfli və Genişləndirilmiş Tərəfdaşlıq Sazişidir. "Sənəd daha çox islahatlara və siyasi prioritetlərə aiddir. Azad ticarət zonasından söhbət getmir", Tiqran Qriqoryan qeyd edir.

Ermənistan KTMT-nin üzvü olmaqla NATO üzvü olan Fransa ilə müdafiə sahəsində əməkdaşlıq edir. Amma indiyədək bu, məhdud əməkdaşlıq olub, nəticədə İrəvana zirehli texnika partiyasının çatdırılması və hava hücumundan müdafiə sistemlərinin tədarükü vədi olub. Ermənistan-Azərbaycan sərhədində baş verənləri izləyən Avropalı müşahidəçilərin Ermənistanda missiyası da var. Bu qarşılıqlı fəaliyyət İrəvanla Aİ arasında münasibətlərdə irəliyə doğru böyük addım oldu, Moskvada narazılıq yaratdı, lakin yenə də təhlükəsizliyin davamlı təminatına çevrilmədi.

Qərb, məsələn, 2022-ci ildə erməni hərbçilərinin və siyasətçilərinin hesablamalarına görə, "Ermənistanın 130 kvadrat kilometrə yaxın ərazisini işğal etmiş" Azərbaycana heç bir şəkildə təsir göstərə bilmədi və hələ də edə bilməz. Ermənistanın fikir ayrılığına düşdüyü Rusiya da Ermənistanla eyni müdafiə alyansının - KTMT-nin üzvü olsa da, bu mövzunu qaldırmır. Yeri gəlmişkən, 2022-ci ildə Ermənistan-Azərbaycan eskalasiyası İrəvanın Rusiya və KTMT ilə münasibətlərə yenidən baxması və sonradan Qərbə üz tutmasının səbəblərindən biri olub.

Düzdür, bu, daha çox deklarativ dönüşdür. Qərbə dönüş deyilən şeyə gəlincə, aprelin 5-də Brüsseldə keçirilən sonuncu görüş (Nikol Paşinyan, Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen və ABŞ dövlət katibi Antoni Blinken arasında danışıqlar nəzərdə tutulur. - müəllif) göstərdi ki, İrəvanda, Brüsseldə, Vaşinqtonda başa düşürlər ki, iqtisadi və enerji məsələlərində Rusiyadan struktur asılılığı səbəbindən bu, çox tez baş verə bilməz. Ermənistanın ixracatının 50%-dən çoxu Rusiyaya gedir, Rusiya bütün enerjiyə nəzarət edir.

Ötən ilin sonunda Ermənistanın Aİİ ölkələri ilə ticarət dövriyyəsi 42,7% artaraq 7,6 milyard dollar təşkil edib. Aİ bu gün bu həcmləri əvəz etməyə hazır olduğunu nümayiş etdirmir. Ermənistan da buna hazır deyil, burada onlar öz məhsullarını Avropa İttifaqının tələblərinə uyğunlaşdırmaq üçün standartlaşdırmaq barədə yenicə düşünməyə başlayıblar.

Siyasi əlaqələr, şübhəsiz ki, vacibdir, lakin iqtisadiyyat və təhlükəsizlik, xüsusən də daha güclü və dost olmayan qonşunun yanında xüsusi əhəmiyyət kəsb edir. Moskva ilə siyasi münasibətləri minimuma endirən, əksinə, Aİ və ABŞ ilə münasibətləri inkişaf etdirən Ermənistan iqtisadi cəhətdən Rusiyadan və onun AİI-də mövcudluğundan çox asılıdır. Bu gün onu özündən başqa heç kim təmin etmir.

Azərbaycan başqa vəziyyətdədir. Onun Rusiya ilə rəvan və hətta isti münasibətləri və əslində Türkiyə ilə 2020-ci il və ondan sonrakı müharibə ilə sınanmış müttəfiq münasibətləri var. Bakı ilə təkbətək qalan Ermənistan hakimiyyəti Bakının təkidli tələbi ilə yeni eskalasiya raundlarının qarşısını almaq üçün güzəştə getməyə, o cümlədən sərhədlərin delimitasiyası məsələsində hazırdır.

**V.VƏLİYEV**

## Bakcell çempion şahmatçı Ülviyyə Fətəliyevanı təbrik etdi

Bakcellin Baş İcraçı Direktoru, Klaus Mueller Azərbaycanın ilk qadınlar arasında Avropa çempionu şahmatçısı Ülviyyə Fətəliyevanı möhtəşəm qələbə münasibətilə təbrik etdi. Bakcell baş ofisində keçən görüşdə qrossmeyster Ülviyyə Fətəliyevaya qızıl Bakcell nömrəsi və 1 illik balans hədiyyə edildi və son model smartfon təqdim olundu. Şahmatçımızın qələbəsinin bütün Azərbaycanı qürurlandırdığını bildirən Bakcell Baş İcraçı Direktoru Ülviyyə Fətəliyevaya karyerasında uğurlarının daimi olmasını diləyib.




Görüş zamanı Bakcellin yeni brend kimliyindən danışan Klaus Mueller bildirib ki, loqodakı 5 dinamik fiqur gələcəyə yol açan bir ulduz yaradır. Bu ulduz insanları, məkanları və dəyərli anları bir-birinə bağlayır və çempion şahmatçımızın bugünkü qələbəsi məhz belə anlardandır.

## Akkan Suver: "Qalib Prezident İlham Əliyevin dialoqun önəmini vurğulaması dünyada sülhün dialoqla qurula biləcəyini bir daha göstərdi"

Bundan əvvəl keçirilmiş beş forumda da iştirak etmişəm. Azərbaycan dövləti mədəniyyətlərarası dialoqa böyük əhəmiyyət verir. Çünki Azərbaycan multikultural ölkədir. Bunun göstəricilərindən biri kimi elə bu Forumu misal göstərmək olar.




Bu fikirləri AZƏRTAC-a açıqlamasında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver deyib.

Prezident İlham Əliyevin çıxışında Azərbaycanın sülh və əmin-amanlıq üçün dialoqu prioritet hesab etdiyini vurğulayan A.Suver bildirib: "Digər çıxışçılar da intellektual və inanc baxımından bu dialoqun əhəmiyyətini vurğuladılar. Fikrimcə, bu panellərdə həm akademik dairələri, həm də din xadimlərinin bir araya gətirilməsi cəmiyyətin fərqli qruplarının bir-biri ilə daha da yaxınlaşmasına, fikirləri ilə tanış olmalarına fürsət yaradır. Bunun fərqində olan Azərbaycan 100-dən çox ölkənin müxtəlif qruplarını buraya dəvət etməklə iştirakçıların bir-biri ilə daha yaxından tanış olmalarına, dialoq vasitəsilə münaqişələrin azaldılmasına, qarşılıqlı anlaşmanın genişlənməsinə çalışır. Bu, təqdirəlayiq təşəbbüsdür. Çünki müxtəlif münaqişələr səbəbindən dünya müharibələr şəraitindədir. Bu vəziyyətdən çıxış yollarından biri də daha çox silahlanmaq yerinə, dialoq mühitinin genişləndirilməsinə töhfə verməkdən ibarətdir. Dünən açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyevin verdiyi mesajlar da bu istiqamətdə oldu. Müharibədə qalib gələn Ali Baş Komandanın dilindən dialoqun önəminin vurğulanması dünyada sülhün dialoqla qurula biləcəyini bir daha göstərdi".

***Ötən əsrin 90-cı illərində Azərbaycan müstəqillik əldə etdikdən və Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin sosial-iqtisadi inkişafı, qayğıya ehtiyacı olan təbəqənin dəstəklə təmin olunması vacib strategiyalardan birinə çevrilmişdi. Sivil dünya birliyinə inteqrasiya, insanların maddi rifahının yaxşılaşdırılması üçün dövlət hərəkətə keçmiş, plan və layihələr müəyyən edilmişdi.***

Ümummilli lider Heydər Əliyevin bu dövrdə həyata keçirdiyi böyük miqyaslı layihələr, sosial müdafiənin gücləndirilməsi istiqamətində atdığı addımlar və dövrün ən yaxşı strategiyası hesab olunan sosial rifah siyasəti qısa müddətdə xalqın dirçəlməsinə, ölkənin iqtisadiyyatının dünya miqyasında inkişaf etməsinə gətirib çıxardı.



# Təməlində ən gözəl əməllərlə ifadə olunmuş Azərbaycançılıq fəlsəfəsi - Heydər Əliyev Fondu - 20





Azərbaycan xalqının sosial rifahın yaxşılaşdırılması istiqamətində layihələr Ulu Öndərin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən, xüsusi sosial dəstəyə ehtiyacı olan insanlar üçün müxtəlif proqram və layihələri reallaşdıran Heydər Əliyev Fondunun yaradılması ilə davam etdirildi. 2004-cü il may ayının 10-da rəsmi açılışı həyata keçirilən Fond tərəfindən Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər ölkəmizin beynəlxalq nüfuzunun artmasına gətirib çıxardı. Heydər Əliyev Fondu həmçinin, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verərək, bu ənənə çərçivəsində fəaliyyətini davam etdirir.

Bildiyimiz kimi, qədim tarixi olan Azərbaycan zəngin mədəniyyətə və incəsənətə malik bir dövlət olaraq, müxtəlif sivilizasiyaların kəsişməsində yerləşir və öz mədəniyyətində müxtəlif sivilizasiyalara məxsus aspektləri əks etdirir.

Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın birinci xanımı, birinci vitse-prezident, Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti və ISESCO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır.



***Sevinc Qasımova,***
***Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədr müavini***

Mehriban Əliyevanın rəhbərliyi ilə Fond gələcəyə hesablanmış layihələri, həssas təbəqəni əhatə edən sosial addımları, milli genefondumuzun inkişafına xidmət edən fikirləri ilə illərdir diqqət çəkməkdə davam edir. Elm, təhsil, texnologiya, səhiyyə,mədəniyyət, ekologiya, idman, sosial problemlərvə s. kimi çoxşaxəli istiqamətləri əhatə edən fəaliyyət çərçivəsində əhəmiyyətli proqramlar hazırlanır və uğurla həyata keçirilir. Ümumiyyətlə, Heydər Əliyev Fondu öz fəaliyyətini müasir zamanın tələbinə cavab verən şəkildə qurub, cəmiyyətdəki çətinlikləri aşkar edərək, hər bir müraciətə cavab verməyə, insanlara şəfa olmağa can atır və görülən işin yüksək nəticələrini fərd olaraq, hər kəs müşahidə edə bilir.

Humanizm, mərhəmət, vətənpərvərlik və xeyirxahlıq missiyası ilə ictimaiyyətdə böyük nüfuz qazanmış Heydər Əliyev Fondunun təhsilin inkişafına xidmət edən "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" kimi layihələrin hər biri həyata keçirilməyə başladığı dövrdən indiyə qədər öz bəhrəsini verib, minlərlə insanın, uşaq və gənclərin işıqlı gələcəyinə ümid olub.

Səhiyyə sahəsində Fond tərəfindən uğurla həyata keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı" "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi önəmli layihələr, o cümlədən Xeyriyyə aksiyaları Azərbaycanda və hətta ölkə hüdudlarından kənarda yaşayan minlərlə azərbaycanlının yaşamına dəstək verən, ağır xəstəliklərdən və tibbi problemlərdən əziyyət çəkən insanlara ömür bəxş edən əvəzsiz addımlardır.

Hazırda Heydər Əliyev Fondunun mədəniyyət sahəsini əhatə edən tədbirləri və addımları sırasında "Mədəniyyət obyektləri və tarixi mədəniyyət abidələri", "Musiqi layihələri", "İncəsənət festivalları və sərgilər", "Tolerantlığın ünvanı - Azərbaycan", "Azərbaycan mədəniyyətinin xaricdə təbliği" kimi əhəmiyyətli işlərin adı çəkilməlidir.

Göründüyü kimi, Heydər Əliyev Fondunun bütün sahələrdə, sadaladıqlarımızdan əlavə xeyriyyəçilik, sosial, idman, informasiya-kommunikasiya texnologiyaları, ətraf mühitvə s. istiqamətlərdə həyata keçirdiyi uğurlu tədbirlərin sayı-hesabı yoxdur.

Fond həmdə həm yerli, həm də xarici qonaqların daim ziyarət etdiyi gözəl məkana çevrilib. Fondu ziyarət edənlər arasında Azərbaycana səfər etmiş bir çox dövlətlərin başçıları da var. Fondun fəaliyyəti Azərbaycan cəmiyyəti, o cümlədən beynəlxalq dairələr tərəfindən də həmişə yüksək qiymətləndirilir.

Mehriban xanım Əliyeva da Fondun fəaliyyəti haqqında danışarkən qeyd edib ki, Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət sahələrinin inkişafında, o cümlədən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında böyük rol oynayıb. Təsadüfi deyil ki, bu gün Heydər Əliyev Fondu dünyada hörmət və etimad ünvanına çevrilib.

Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun yüksəlməsinə, təhsilin, mədəniyyətin və sosial rifahın güclənməsinə xidmət edərək, ölkəmizin xeyirxahlıq, qayğıkeşlik və insanpərvərlik nümunəsi kimi anılmasına səbəb olur. Elə buna görədə, əminliklə deyə bilərik ki, Ümummilli Liderin adını daşıyan və Ulu Öndərin özü qədər əzəmətli olan Heydər Əliyev Fondunun fəaliyyətinin məğzində məhz yaxşılıq, insanlıq, ülvi-bəşəri ideyalar, xüsusilə, ən gözəl əməllərlə ifadə olunmuş Azərbaycançılıq fəlsəfəsi dayanır!

# Azərbaycan dünyanın güc mərkəzinə çevrilir

## 80 milyonluq dünya azərbaycanlılarının Lideri, Prezidentimiz İlham Əliyev bəşər tarixinə adını əbədi olaraq Qalib Sərkərdə olaraq yazdırdı

Azərbaycanın sosial- iqtisadi cəhətdən inkişaf etməsi, hərbi qüdrətinin daha da artması dünyanın güc mərkəzlərinin ölkəmizə olan inam və etimadın möhkəmlənməsinə imkanlar yaradıb. Artıq əksər ölkələr və böyük nüfuza malik beynəlxalq təşkilatlar Azərbaycanın istənilən mövqeyi, təklif və irəli sürdüyü ideyaları ilə razılaşırlar. Söz yox ki, Azərbaycanın qüdrətli dövlət olaraq qəbul edilməsində və tanınmasında 30 il işğal altında olmuş torpaqlarımızın 44 günlük Vətən müharibəsi ilə azad edilməsi xüsusi rol oynayır. Təbii ki, dövlətimizi və xalqımızı gözləyən uğurlarımız hələ qabaqdadır. Çünki Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu Azərbaycana Fateh Sərkərdə, Uğurlarımızın və qələbələrimizin təminatçısı, Prezident İlham Əliyev rəhbərlik edir. Məhz Fateh Sərkərdə, Prezident İlham Əliyevin 44 günlük Vətən Müharibəsi dövründəki titanik fəaliyyəti, müdirik Liderlik bacarığı sayəsində 30 illik erməni işğalına son qoyuldu, torpaqlarımız azadlığına qovuşdu. Yenilməz Sərkərdə, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşadan Azərbaycan xalqına müraciətində demişdir: ”Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, ”Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!”. Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı”.



### Parlaq qələbələrin əsasının qoyulduğu tarix

Birmənalı şəkil də qeyd etmək olar ki, Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü il prezident seçkiləri öncəsi xalqa verdiyi bütün vədlərini artıqlaması ilə yerinə yetirib. Bununlada həm də tarixə vədinə və imzasına əməl edən Lider kimi düşüb. Ulu Öndər Heydər Əliyev 01.10.2003-cü il tarixli xalqa müraciətində deyilirdi: ”Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Beləliklə qədirbilən Azərbaycan xalqı 2003-cü ilin 15 oktyabrı tarixində keçirilmiş seçkilərdə öz səsini Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına üçün Onun ən layiqli siyasi varisi Cənab İlham Əliyevə verdi. 20 il ərzində Azərbaycan iqtisadiyyatı davamlı və dinamik inkişaf edib, böyük tərəqqiyə, nailiyyətlərə imza atılıb. Ötən 20 il ərzində reallaşdırılan irimiqyaslı beynəlxalq və regional layihələr Azərbaycanın iştirakı, onun milli maraqları nəzərə alınmaqla həyata keçirilib. 1994-cü ildə imzalanan ”Əsrin müqaviləsi” ilə əsası qoyulan neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycanın qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi misilsiz layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsi ilə bağlı işlər yekunlaşmaq üzrədir. Həmçinin ”Əsrin müqaviləsi” 2050-ci ilə qədər uzadılıb.Eyni zamanda, dövlətimizin başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib. Prezident İlham Əliyev 15 oktyabr 2023-cü il də Xankəndi şəhərində Azərbaycanın üçrəngli bayrağını ucaltdığı zaman əldə olunan uğurlardan bəhs edərkən demişdir: ”Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və ”Qurani-Kərim”ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi” .

### Qarabağ inkişaf edir, insanlar öz doğma yurdlarına qayıdırlar

Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi uğurları beynəlxal maliyyə institutlarıda yaydıqları hesabtalarda qeyd edirlər. Dünya Bankının ”Doing Business” 2019-cu ilin hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub və 190 dövlət arasında 25-ci yeri tutub. ”Doing Business 2020” hesabatında isə Azərbaycan daha 5 pillə irəliləyərək ən islahatçı 20 ölkə sırasına daxil edilib. Davos Dünya İqtisadi Forumunun 2020-ci ilin hesabatına əsasən, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb. Davos hesabatına əsasən, Azərbaycan əhalinin elektrik enerjisinə əlçatanlıq əmsalına görə dünyada 2-ci, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanları xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyəti baxımından 27-ci yerdədirAzərbaycanın neft sektoruna investisiya yatıran xarici ölkələr siyahısının ilk beşliyində Böyük Britaniya, ABŞ, Türkiyə, Norveç, Yaponiya kimi ölkələr qərarlaşıb. Son 20 ildə iqtisadiyyata yönəldilən investisiyalar 2,8 milyard ABŞ dollarından 17,1 milyard ABŞ dollara qədər yüksəlib. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib. Ölkə iqtisadiyyatına yatırılmış birbaşa investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 82,8% təşkil edib. Ölkə iqtisadiyyatının qeyri-neft sektoruna ən çox investisiya yatıran ölkələrin ilk beşliyində isə Türkiyə, Böyük Britaniya, ABŞ, Niderland və Rusiyanı qeyd etmək olar. İndiyədək Azərbaycanda xarici ölkələrin müxtəlif sahələri əhatə edən 9000-dən çox şirkəti qeydiyyatdan keçib. Xarici şirkətlər Azərbaycanda dövlət əsaslı vəsait hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə podratçı və subpodratçı qismində də fəal iştirak edirlər.

### Ulu Öndərimizin dediyi ”Azərbayan dünyaya günəş kimi doğacaq” tarixi fikri reallaşır

Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı eyni zamanda investisiya ixracatçısına çevirib. Ötən müddət ərzində Türkiyə, Gürcüstan, Rusiya, ABŞ, Yaponiya, Çin, İsveçrə, Serbiya, Monteneqro, Ukrayna və digər ölkələrə əhəmiyyətli həcmlərdə investisiya yatırılıb. İnvestisiyaların yatırılması Azərbaycanın sabit, sakit və iqtisadi dividend əldə etmək baxımından cəlbedici ölkə olamsından irəli gəlir. Zamanında Ulu Öndərimiz Heydər Əliyev demişdir” İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”. Məhz bu tezisi rəhbər tutan dövlət başçımız Azərbaycanı daha böyük social iqtisası uğurlara aparan siyasət həyata keçirdi. Artıq müsbət nəticələri var. Azərbaycanın dünyanın ən inkişaf edən dövlətləri sırasında ön sırada qərarlaşır. Təbii ki, iqtisadi uğurlar əhalinin social cəhətdən daha firavan yaşamasına imkanlar yaradır. Eyni zamanda da iqtisadi qüdrətimiz hesabına işğaldan azd edilən bölgələrimiz yenidən qurulur, bərpa olunur. Quruculuq abadlıq işlərinin həyata keçirildiyi əksər işğaldan azad edilən şəhər və kəndlərimizə insanlar köçürülür. Bu isə insanları sevindirir, əhali Prezidentimizə öz təşəkkürlərini, minnatdarlıq hisslərini ifadə edirlər. Ümumil də demək olar ki, Azərbaycanımızın bütün bölgələrində yeni dövrün tələblərinə uyğun olaraq inkişaf strategiyası həyata keçirilir. Həyata keçirilən dövlət proqramları sayəsində bölgələrdə iyeni iş yerləri yaradılır, iaşə obyektləri, zavod və fabriklər inşa edilir. Məhz konkret proqramların uğurla icra edilməsi nəticəsində işsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşüb. Son beş il ərzində Azərbaycanda 2 milyondan çox yeni iş yeri yaradıldılıb ki bunda 80 faizi daimi iş yerləridir. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqlənib. Ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmini üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. Yeni bölgüyə əsasən isə iqtisadi rayonların sayı 10-dan 14-ə çatdırılıb. Bu bölgü Qarabağ bölgəsinin sürətli inkişafına xidmət edir. Bunun üçün Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılıb. Bütün bu işlər Azərbaycanın yeni uğurlarından xəbər verir. Ümumilik də isə o fikiri vurğulamaq olar ki, Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyev ötən 20 il ərzində bəyan etdiyi strateji hədəflərə nail olub, verdiyi vədləri yerinə yetirib. Ona görə də bu gün Azərbaycan bəşəriyyətin ən sayılıb, seçilən və hörmət edilən dövlətinə çevrilib. Bu və digər uğurlara, xüsusilə də, 30 il erməni işğalı altında qalmış torpaqlarımızı azad edib, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə, 80 milyonluq dünya azərbaycanlılarının Lideri, Prezidentimiz İlham Əliyev bəşər tarixinə adını əbədi olaraq Qalib Sərkərdə olaraq yazdırdı. Tam əminliklə demək olar ki, qələbələrimiz və uğurlarımız hələ qabaqdadır. Ulu Öndərimiz Heydər Əliyevin dediyi kimi, ”Azərbayan dünyaya günəş kimi doğacaq”.

**İLHAM ƏLİYEV**

# Gürcüstanda "xarici agent" üsyanı

*Ölkəni xaosa sürükləyən qanunun qəbulu kimləri narahat edir?*

***Bir vaxtlar Avropa İttifaqının ayrı-ayrı institutlarının nümayəndələri Cənubi Qafqazda qeyri-hökumət təşkilatlarının sayına görə Gürcüstanı qalan ölkələrə örnək kimi göstərirdilər. Gürcüstan cəmiyyəti də bundan qürrələnən kimi görünürdü. Amma daxili sabitliyin qorunmasında maraqlı olan hakimiyyətlər isə kənar müdaxilələrin ağır fəsadlar verə biləcəyini nəzərə alıb buna ehtiyatla yanaşırdılar. Və təxminlərində heç də yanılmayıblar. Bu gün QHT bolluğundan fəxr duyan Gürcüstanda ara qarışıb, məzhəb itib. Hakimiyyət ölkədə baş verən xaosun başında Qərbin maliyyəsindən asılı olan QHT-lərin olduğunu anlamaqdadır. Bəs Gürcüstan hakimiyyəti bunu nə vaxt anladı?***



Tbilisidə Gürcüstan parlamentinin binası qarşısında "Xarici agentlər haqqında" qanun layihəsinə qarşı növbəti aksiya keçiriləndə sirlər çözülməyə başladı. Parlamentdə layihənin müzakirəsi getdiyi vaxtda bir anlıq ara qarışdı. Bir gün əvvəl, aprelin 29-da parlamentin hüquq komitəsi tərəfindən layihə bəyənilsə də bu bəzi "avropalıları" qəflət yuxusundan oyadıb. Deputatlar qanun layihəsinə sona qədər baxmağa vaxt tapmayıblar və prosedurun mayın 1-də davam etdirilməsinə qərar veriblər. Etirazçılar isə oturaq aksiya keçirərək binanın girişini bağlamağa çalışsalar da, polis əvvəlcə onları oradan uzaqlaşdırmağa çalışıbonlara, etirazçılar direniş göstərincə güc tətbiq edilib. Tezliklə həbslər başlayıb. Polis əməkdaşlarına xüsusi təyinatlılar da qoşulub.



Məlumata görə, çevik polis etirazçılara qarşı bibər qazından istifadə etməyə başlayıb. Hətta həbslər polislə toqquşmaya çevrilib. "Rustavi 2" telekanalının məlumatına görə, mitinqə müxalifət deputatları da qoşulub. Telekanal həmçinin nümayişçilərlə polis arasında toqquşmaların olduğunu da bildirib. "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi "Gürcü arzusu" partiyası tərəfindən 2023-cü ilin martında Gürcüstan parlamentinə təqdim edilib. Lakin etirazlara görə qanun layihəsi geri götürülüb. Bu il aprelin əvvəlində layihə yenidən baxılmaq üçün təqdim edilib. Qanun layihəsinə əsasən, xaricdən 20%-dən çox maliyyələşən istənilən təşkilat hər il öz mənbələri və vəsaitdən məqsədli istifadəni göstərən gəlir bəyannaməsi təqdim etməlidir. Qanun layihəsinə qarşı çıxanlar bunun Rusiyanın xarici agentlər qanununa bənzədiyini iddia edirlər.

## Etirazçılara qarşı rezin güllələr

Xüsusi təyinatlılar Tbilisidə etirazçılara qarşı rezin güllələrdən və su şırnaqlarından istifadə etməyə başlayıb, Məlumata görə, aksiyanın keçirildiyi yerdə həkimlər zərərçəkənlərə yardım edir. Təhlükəsizlik qüvvələri etirazçıları Rustaveli prospektindən sıxışdırmağa başlayıb. Mitinq iştirakçıları təhlükəsizlik qüvvələrinə şüşə və daş atırlar. Gürcü xüsusi təyinatlılarının izdihamı su şırnaqları və gözyaşardıcı qazla dağıtması əks olunub. "Rustavi 2" televiziya kanalı təhlükəsizlik qüvvələri ilə etirazçılar arasında "fiziki qarşıdurma" olduğunu bildirib. Gürcüstan Daxili İşlər Nazirliyi bildirib ki, departament əməkdaşları "hüquqi tədbirlər görməyə" başlayıblar, çünki "hərəkət qanundan tamamilə kənara çıxıb" və "zorakılığa çevrilib".

2024-cü ilin aprelində "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi baxılmaq üçün yenidən parlamentə təqdim edilib. Layihə ikinci oxunuşda qəbul edilib. Tbilisidə parlament binası yaxınlığında mitinqlər aprelin 15-də başlayıb. Gürcüstan prezidenti Salome Zurabişvili buna veto qoyacağını vəd edib. Mayın 1-də deputatların üçüncü oxunuşda baxacaqları qanun layihəsini müxalifət Rusiyaya oxşar adlandırıb.

Gürcüstan Səhiyyə Nazirliyi Tbilisidə parlamentin qarşısında keçirilən aksiyalar zamanı üç polis əməkdaşının yaralandığını bildirib. Bundan əvvəl media polislə etirazçılar arasında toqquşmalardan yazıb. Mitinq yerinə kifayət qədər çoxlu sayda təcili yardım briqadası cəlb edilib və tibb işçiləri "vətəndaşları bütün lazımi dərmanlarla təmin edir". Xəsarət alan 3 polis əməkdaşı xəstəxanaya yerləşdirilib. Xəsarət alan etirazçılar barədə məlumat verilməyib. Bundan əvvəl Rusiya və Gürcüstan KİV-lərinin müxbirləri xüsusi təyinatlıların etirazçılara qarşı rezin güllə, su şırnaqları və gözyaşardıcı qazdan istifadə etməyə başladığını yazmışdılar. Yaralanan nümayişçilər barədə məlumat verilir.

Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin müxalifət partiyası olan Vahid Milli Hərəkat Partiyasının sədri Levan Xabeişvili Tbilisidə keçirilən aksiyada həbs olunub və polis əməkdaşları tərəfindən döyülüb. Bu barədə "Mtavari Arkhi" telekanalı məlumat yayıb. Telekanal Levan Xabeişvilinin fotosunu dərc edib. Kişinin üzündə çoxsaylı hematomlar görünür. "Mtavari Arxi" müxalifətçinin həbsi zamanı xüsusi təyinatlılar tərəfindən döyüldüyünü iddia edib. O, xəstəxanaya yerləşdirilib.

"Levan Xabeişvilinin xüsusi təyinatlılar tərəfindən yaralanan gənclərdən birinə kömək etmək istəyərkən necə oğurlanmasının



şahidləri var. Bu zaman xüsusi təyinatlılar onu mühasirəyə alıb və həbs ediblər", - deyə Xabeişvilinin partiya yoldaşı Levan Bejaşvili telekanala bildirib.

## Yenə Zurabişvili...

Aprelin 30-da axşam saatlarında Tbilisidəki mitinq yenidən gərginləşib - xüsusi təyinatlılar nümayişçilərə qarşı rezin güllələr, gözyaşardıcı qaz və su şırnaqlarından istifadə etməyə başlayıblar. Buna cavab olaraq etirazçılar təhlükəsizlik qüvvələrinə şüşə atıblar və dava ediblər. Media nümayişçilər arasında itkilər olduğunu bildirir, onların sayı məlum deyil. Gürcüstan prezidenti Salome Zurabişvili polisin hərəkətlərini pisləyib və videomüraciətində Gürcüstan Daxili İşlər Nazirliyinin rəhbəri Vaxtanq Qomelaurini etirazçılara qarşı güc tətbiqini dayandırmağa çağırıb. Bundan əvvəl media xüsusi təyinatlıların nümayişçilərə qarşı rezin güllə, su şırnaqları və gözyaşardıcı qazdan istifadə etməyə başladığını yazmışdı.

Zurabişvili müraciətində etiraz aksiyasını "dinc" və təhlükəsizlik qüvvələrinin güc tətbiqini "qeyri-mütənasib" adlandırıb. O, həmçinin Gürcüstanın ictimai müdafiəçisi Levan İoselianiyə mitinqin dağıdılması zamanı polisin "heç bir təhlükə yaratmayan" hərəkətlərinə cavab verilməsi xahişi ilə müraciət edib. "Tbilisidə dinc etirazçılara qarşı tamamilə əsassız və qeyri-mütənasib güc tətbiqi davam edir. Gürcü xalqı dinc etiraz etmək hüququndan məhrumdur", - deyə xanım Zurabişvili yazıb.

Tbilisidə hüquq-mühafizə orqanları xarici agentlər haqqında qanun layihəsinə etiraz edənlərdən 63-ünü saxlayıb. Bunu Gürcüstanın daxili işlər nazirinin müavini Aleksandr Daraxvelidze deyib. O, həmçinin bildirib ki, hüquq-mühafizə orqanlarının 6 əməkdaşı ağır yaralanıb, Daxili İşlər Nazirliyinin əməkdaşlarına hücum edənlərə qarşı cinayət işi açılıb. "Gürcüstan Daxili İşlər Nazirliyinin əməkdaşları Rustaveli prospektində keçirilən aksiyada 63 nəfəri xırda xuliqanlıq və polis əməkdaşının qanuni tələblərinə tabe olmadıqları üçün saxlayıblar. Aksiya iştirakçılarının zorakılıq hərəkətləri nəticəsində 6 polis əməkdaşı müxtəlif dərəcəli ağır bədən xəsarətləri alıb", - deyə cənab Daraxvelidze bildirib.

Hadisənin təxmini təfərrüatını verməkdə məqsədimiz var. Sifarişin icraçıları bəllidir və onlar xaricdən aldıqları maliyyə vəsaitlərinin hara və necə xərclənəcəyini hökumətlə bölüşmək istəmirlər. Hakimiyyət isə hər kəsin qanun qarşısında bərabər olduğunu xatırlatmaqla yanaşı xarici mənbələrdən əldə edilən pulun mənbəyinin şəffaflığını istəyir. Təbii ki, pulu-paranı göndərən təşkilat onun hara xərclənəcəyi barədə hesabatı onlardan tələb etməklə yanaşı, həm də onları istiqamətləndirir. Müxtəlif sektorların və ümumiyyətlə ölkə ictimaiyyətinin hansı istiqamətə yürüyəcəyini də o mərkəzlər idarə edir. Beləliklə, Gürcüstan bu gün xarici agentlərin işğalı altındadır, hökumət "demokratik dəyərləri formalaşdıran" QHT sektorunun sözdə Gürcüstanla, əməldə isə xarici dövlətlərin xüsusi xidmət orqanları ilə birgə fəaliyyət göstərdiyinin fərqindədir.

Yəqin ki, oxucular Gürcüstandan verilən məlumatlarda prezident Salome Zurabişvili ilə hökumət arasında böyük ziddiyyətlərin olduğu görməmiş deyil. Bəs dövlətin iki strukturu arasında qarşıdurma niyə bu həddə çatıb. Yadınızdadırsa hələ bir il bundan əvvəl Gürcüstan Parlamentində Zurabişviliyə etimadsızlıq müzakirəyə çıxarılmışdı. Məsələ o qədər ciddi xarakter almışdı ki, hətta prezidentin həbs olunacağı da ortalarda dolaşırdı. Son anda hansısa əl Gürcüstanda prosesin axarını dəyişə bildi və etimadsızlıq məsələsi gündəmdən çıxarıldı, əvəzində Salome Zurabişviliyə hökumətin nəzarəti gücləndirildi. Əslində Gürcü hökuməti həmin vaxt hədəfi düz tapmışdı, bütün baş verənlərin başında prezidentin dayandığını dəqiqləşdirmişdi. Bu gün Zurabişvilinin "xarici agentlər haqqında" qanun layihəsinə bu sayaq münasibət göstərməsi, etirazçılarla birlik nümayişi onun bir nömrəli agent olduğuna işarədir.

**V.VƏLİYEV**

# "Forumun Bakıda keçirilməsi dünyada gedən proseslərin çağırışları ilə bağlıdır"




*MÜNASİBƏT*

"Mədəniyyətlərarası dialoqun Bakıda ənənəvi olaraq keçirilməsi əlbəttə bir baxımdan dünyada gedən proseslərin, küresəlləşmənin, qloballaşdırmanın çağırışları ilə bağlıdır. Bu gün çalışılır ki, hər nə qədər güllə səsləri eşidilsə də, müharibələr baş versə də, yenə də dünyada insanların birgə yaşayışının, humanist diplomatiyanın ən yaxşı yolu sülh, danışıq və mədəniyyətdir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Nizami Cəfərov deyib.

Onun sözlərinə görə, mədəni əlaqələr bir sıra siyasi, bioloji problemlərin, qarşıdurmaların aradan qaldırılması üçün çox əhəmiyyətlidir: "Ona görə də ümumiyyətlə mədəni əlaqələrin və diplomatiyanın bu cür mədəni forumlar şəklində təzahürü hər halda bütün dünyada getdikcə yayılan və qəbul olunan əsas üsula çevrilməkdədir. Bu forumların ardıcıl şəkildə müxtəlif formatlarda Bakıda keçirilməsi təsadüfi deyil. Bu gün Azərbaycan həqiqətən bir vaxtlar Prezident İlham Əliyevin dəqiq ifadəsi ilə desək, bir sülh adasıdır. Artıq neçə illərdir ki, Azərbaycan sülhü qoruyur və daima əmin-amanlığı təmin edir. Amma eyni zamanda Azərbaycan bunu sadəcə olaraq daim güzəştə getməklə təmin etmir. Azərbaycan həm də qürurlu və öz hüquqlarını bütün dünyada qoruyan bir ölkədir".

Deputat bildirib ki, Azərbaycan sonadək sülhə sadiqdir: "Amma qeyd edək ki, qeyri-humanist, antibəşəri qüvvələr Azərbaycana nəyisə diqtə etmək istəyərək, özünün hansısa mürtəce planlarını həyata keçirmək istəyir. O zaman Azərbaycan öz hüquqlarını qorumaq qüvvəsindədir. Bununla yanaşı yenə də Azərbaycanın əsas məqsədi və məramı hər hansısa problemi məhz dialoq yolu ilə mədəni, səviyyəli şəkildə həll etməkdir. Ona görə də Azərbaycanın dünyada baş verən mürəkkəb hadisələri müzakirə edən bütün dünyanın müzakirə etdiyi bir coğrafiyaya çevrilməsi tamamilə təbiidir. Bu, dialoq forumları ilə bitmir. Azərbaycanda keçirilən beynəlxalq tədbirlər yalnız mədəniyyətlərarası dialoq şəklində yox, həm də başqa tədbirlərdə intensiv şəkildə keçirilir. İdman yarışları, elmi konfranslar və s. bütün bunlar Azərbaycanda siyasətin, sürətli dəyişikliyin və beynəlxalq miqyasda dəyəri olan inkişafın təzahürüdür".

**Ləman Sərraf**

# Sülh və qlobal təhlükəsizlik naminə dünyaya çağırış



**Rauf Əliyev**
**Milli Məclisin deputatı**

May ayının 1-dən 3-dək ölkəmizdə "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcək. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təklifi əsasında 2008-ci ildə mədəniyyətlərarası dialoqa dair bu Forumun əsası qoyulmuşdur və 2011-ci ildə ilk Forum keçirilmişdir. Forumun əsas məramı və məqsədi mədəniyyətlərarası əməkdaşlıq dialoqun təşviq edilməsi üçün mühüm beynəlxalq plaformanın yaradılmasıdır. Bundan öncə keçirilmiş bu Forumlar artıq beynəlxalq platforma olduğunu sübut etmişdir. Azərbaycanda keçirilən tədbirin uğurlu göstəricilərindən biri də Foruma dünyanın 110-a yaxın ölkəsindən aparıcı beynəlxalq təşkilatların, hökumət üzvlərinin, parlament sədrlərinin, parlament üzvlərinin, beynəlxalq media nümayəndələrinin, QHT rəhbərlərinin və nüfuzlu mərkəz təmsilçilərinin iştirak etməsidir. "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu dünya üçün vacib və aktual hesab edilən məsələlər müzakirə ediləcəkdir.Tədbirdə iştirak edən cənab İlham Əliyev bir çox vacib məsələlərə toxunaraq bildirmişdir ki, "Məmnunam ki, burada 100-dən artıq ölkənin nümayəndəsi var. Əslində, bu, 110 ölkədir. Bu, sözün əsl mənasında göstərir ki, Forum çox mühüm beynəlxalq platformadır və orada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur. Biz indi qısa videoçarx seyr etdik, orada "Bakı Prosesi" haqqında bəhs olunur. Əslində, biz prosesi başlayanda heç təsəvvür edə bilmirdik ki, onun nəticəsində insanları - ziyalıları, siyasətçiləri, qərar qəbul edənləri, media nümayəndələrini, vətəndaş cəmiyyətinin nümayəndələrini, vətəndaş cəmiyyətini bir araya gətirəcəyik, bir məqsəd ətrafında toplayacağıq ki, necə edək bizim dünyamız daha təhlükəsiz olsun. Çünki bunun əsasında mədəniyyətlərarası dialoq dayanır. Mən burada Forumun proqramına baxdım. Görürəm, o, çox geniş proqramdır, bir çox sahələri əhatə edir. Gündəlik həqiqətən genişdir - mədəniyyətlərarası dialoq, müxtəliflik, iqlim dəyişmələri, miqrasiya, sülh və təhlükəsizlik, postmünaqişə vəziyyəti, turizm, süni zəka. Mən məhsuldar müzakirələr arzu edirəm. Əminəm ki, bu müzakirələr və o cümlədən Forum zamanı irəli sürülən ideyalar bizə yanaşmaları formalaşdırmağa imkan verəcək ki, mədəniyyətlərarası dialoqu necə gücləndirək, biz necə edək ki, mövcud və potensial hədələri aradan qaldıraq? 2019-cu ildə Bakıda görüşümüzdən sonra əfsuslar olsun ki, dünya təhlükəsiz olmayıb. Əfsuslar olsun ki, biz yeni münaqişələri görürük, yeni qeyri-sabitlik məkanlarını görürük və yeni təhdidləri görürük. Əminəm ki, hörmətli nümayəndələrdən ibarət auditoriya öz töhfəsini verəcək, ideyalar və yeni yanaşmalar formalaşacaq ki, qlobal gündəlikdə olan məsələlərə ən təxirəsalınmaz həll variantları tapılsın". Qeyd etmək lazımdır ki, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu hal-hazırda dünyada baş verən gərgin və ziddiyyətli bir dönəmdə müxtəlif xalqlar, etnoslar arasında qarşılıqlı anlaşmanı təşviq edən, dini, mədəni və etnik amillərdən irəli gələn müxtəlifliklərdən ərsəyə gələn düşüncələrin həyata keçirilməsində təsirli vasitə kimi faydalanmağın yollarını özündə əks etdirən unikal müzakirə platformasıdır. Ölkəmiz multikultural ənənələri ilə özünü dünyada tanıtmışdır. Azərbaycan Foruma ev sahibliyi etməklə mədəniyyətlərarası dialoqa töhfə verərək dünyada baş verən qlobal əhəmiyyətli məsələlərin həllində fəal iştirak edir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda ölkəmiz üçün vacib və əhəmiyyətli beynəlxalq tədbir hesab etmək olar. Çünki son zamanlarda ölkəmizdə bir çox beynəlxalq tədbirlər keçirilib. Ölkəmiz bu tədbirlərə ev sahibliyi edib. Ölkəmizdə mədəniyyətlərarası əməkdaşlıq və dialoqun təşviqi üçün mühüm beynəlxalq plaforma yaradılıb.VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində aparılacaq müzakirələr bu sahədə olan qlobal problemləri müəyyən edərək əməkdaşlıq, hərməylik, tərəfdaşlıq və qarşılıqlı anlaşmanın gücləndirilməsi istiqamətində təkliflər verilərək xalqlar, dinlər, mədəniyyətlər və etnik amillər arasında əlaqələrin yaxşılaşdırılması istiqamətində böyük töhfə verəcək.

# "Mina xəritəsiz ola bilməz"

**"Təəssüflər olsun ki, Ermənistan Azərbaycan ərazisini dünyanın ən çox çirklənən ərazilərindən birinə çevirib". Bu sözləri SİA-ya açıqlamasında "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri, hərbi ekspert, "Hərbi And" qəzetinin baş redaktoru Emin Həsənli deyib.**

O bildirib ki, özlərinin etiraf etdiyi xəritələrdə təkcə Ağdam, Füzulidə 97 min mina vardır: "Nə üçün kiçik bir əraziyə bu qədər mina basdırıblar? Ona görə ki, onlar minanı hərbiçilər üçün basdırmayıblar. Mülki insanlara qarşı, azərbaycanlılar oraya gedərkən minaya düşüb daha çox itki versinlər, qorxu yaransın, öz ərazilərinə qayıtmasınlar deyə ediblər. Minanı basdırmaqda əsas məqsədləri bu idi.

Birinci məqsəd, azərbaycanlıları daha çox qırmaq, ikinci, qorxu yaratmaq, dədə-baba yurdlarına qayıtmamalarını təmin etmək idi. Məqsədlərinə çatmadılar. Azərbaycanlılar dədə-baba torpaqlarına qayıdırlar, o əraziləri bərpa edib tikirlər. Mina təmizləmə ilə yanaşı yollar çəkilir, hava limanları tikilir, hərbi hissələr yaradılır, şəhərlər, qəsəbələr qurulur. Bütünlüklə Qarabağ cənnətə çevrilir".




"Onlar ilkin dövr mina xəritələrini vermək istəmirdilər. Deyirdilər ki, guya, yoxdur. Minanı da qeyri-peşəkarlar basdıra bilməz. Ancaq peşəkar insanlar basdıra bilər. Mina xəritəsiz ola bilməz. Qeyri-peşəkarlar basdırsa, minaya düşə bilərlər. Bu onu deməyə əsas verir ki, xəritə ermənilərdə var idi. Bizə də verilən xəritələr düzgün deyildi. Xəritələri də ona görə gec verdilər ki, əfsanə xəritələr yaradıb versinlər.

Azərbaycan dövləti bunun qarşısını almaq üçün maksimum addımlar atır. Mina Agentliyi yaradılıb. Ona xeyli vəsait ayrılıb. Xeyli sayda ştat cədvəli var, işçilər götürülüb. Müdafiə Nazirliyinin Minatəmizləmə hərbi hissələrinin sayı artırılıb. Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti minatəmizləmə ilə məşğuldur. Qardaş Türkiyə bu mövzuda Azərbaycana kömək edir.



Təəssüflər olsun ki, Avropa insan haqlarından danışır. Azərbaycan ərazilərinin minadan təmizlənməsinə də yetərincə dəstək olmadılar. Simvolik dəstək oldular, görüntü xarakteri daşıyır. Onların kifayət qədər mütəxəssisləri var idi. Amma Azərbaycan dövləti təkcə xeyli ərazini minadan təmizləyir. İnşallah qısa zamanda bu proses başa çatacaq.

Dünyada elə bir ərazi yoxdur ki, müharibədən sonra orada partlayışlar olmasın. İkinci dünya müharibəsindən uzun müddət keçməsinə baxmayaraq hələ də orada çirklənmiş zonalar var. Belə partlayış xəbərləri hələ də eşidirik. Təəssüf ki, bundan yüz faiz qorunma yoxdur. Ancaq Azərbaycan dövləti müasir texnologiyaların gücü ilə nə mümkündürsə, onu etməyə çalışır" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

# Ermənistan vətəndaş müharibəsi ilə üz-üzə!

## Ölkədə Qərbpərəstlərlə, Rusiyapərəstlər arasındakı ziddiyyət silahlı qarşıdurmaya çevrilmək ərəfəsindədir

***Hazırda Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəsindəki reytinqi durmadan aşağı düşür. Lakin Ermənistan cəmiyyətində lider və şəxsiyyət qıtlığı yarandığı üçün hələlik onu əvəzləyəcək ciddi bir siyasətçi də gözə dəymir. Düzdür, Nikolun son illərdə sülhə meyilli açıqlamalarını da tez- tez eşidirik. Xüsusilə onun Ermənistanın dövlət atributlarını və konstitusiyasını da dəyişməyə meyillənməsi müsbət hal kimi qiymətləndirilir.***

Azərbaycan dövləti də haqlı olaraq sülh üçün Ermənistan konstitusiyasındakı bəzi maddələrin ləğvini istəyir. Çünki Ermənistanın konstitusiyasında dəyişiklik edilməsi qaçılmaz prosesdir. Məhz bu səbəbdən də Nikol Paşinyan fevralın 1-də İctimai televiziyaya müsahibəsində ölkəsinin əsas qanununun anormal maddələrlə zəngin olduğunu vurğulamışdı. Bildirmişdi ki, Ermənistanın Müstəqillik Bəyannaməsi Azərbaycanla sülhə maneədir: "Dövlət siyasəti Müstəqillik Bəyannaməsinə, Qarabağın Ermənistana birləşdirilməsinə əsaslanırsa, müharibə olacaq və heç vaxt sülh yaranmayacaq". Paşinyan hayları inandırmağa çalışır ki, Ermənistanın qonşularla münasibətlərini müsbətə doğru yaxşılaşdırması üçün ölkədə konstitusiya islahatları aparılmalıdır.



Xatırladaq ki, Ermənistanın Müstəqillik Bəyannaməsi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında 1989-cu il 1 dekabr tarixli deklarasiyaya əsaslanır. Bu sənədi 1990-cı il avqustun 23-də o zaman ölkənin Ali Sovetinin sədri vəzifəsini tutmuş Levon Ter-Petrosyan imzalayıb. Yeri gəlmişkən, bəzilərinin hələ də demokrat adlandırdığı bu zatın Ermənistanın prezidenti olduğu dövrlərdə anti-Azərbaycan addımlarının əsası qoyulub, şəhər və kəndlərimiz işğal olunub. Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR və Dağlıq Qarabağın birləşməsi haqqında" Ermənistan Ali Soveti və "Dağlıq Qarabağın Milli Şurası"nın qərarı da əsas tutulur. Bundan başqa, sənəddə 1915-ci ildə Osmanlı dövlətində "erməni soyqırımı"nın beynəlxalq səviyyədə tanınmasına nail olunması da vurğulanıb. Bütün bunlar isə hələ də Ermənistan konstitusiyasından müharibə və qan iyinin gəldiyinə dəlalət edir.

Eyni zamanda, Ermənistanın dövlət himnində, bayrağında Türkiyə və Azərbaycana qarşı düşmənçilik simvolları da mövcuddur. Burada da onların ərazi iddiaları görünür. Ötən ilin mayında Nikol Paşinyan keçirdiyi mətbuat konfransında bu məsələyə toxunaraq ölkəsində ən hündür dağın Ararat (Ağrı dağı) deyil, Araqats olduğunu vurğulamışdı: "Ararat və Araqatsdan söz düşmüşkən, mən Ermənistanın suveren ərazisi olan və ya olmayan ərazilərdən danışıram. Araqat Ermənistanda, Ağrı dağı isə Türkiyədədir. Türkiyə ilə bizim dəqiq müəyyən edilmiş sərhədimiz var." O əlavə etmişdi ki, Ağrı dağı Türkiyənin beynəlxalq səviyyədə tanınmış ərazidir. "Ermənistan həmin əraziyə iddia edərsə, Türkiyə bizimlə əməkdaşlıq edər? Əlbəttə, yox".

Ermənistan parlamentinin sədri Alen Simonyan da bu günlərdə konstitusiya dəyişikliyindən bəhs edərək dövlət himni və gerbinin gec-tez dəyişdiriləcəyini vurğulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev də çıxışlarında Ermənistanın əsas qanununun dəyişdirilməsinin vacibliyindən danışıb. Bildirib ki, bu ölkənin Müstəqillik Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsinə və onun ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var və bu sənədə istinadlar da Ermənistan konstitusiyasında öz əksini tapıb. Ölkəmizin başçısı vurğulayıb ki, hazırda işğalçı ölkədə bu mövzuda müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər.

Lakin bu məsələlərdə Ermənistana mane olan xarici amillər də var. Belə ki, tarixi cinayətləri ilə Avropanın və ümumlikdə bütün bəşəriyyətin üz qarasına çevrilmiş Fransa Ermənistanın Azərbaycanla sülh sazişini imzalamasına birmənalı şəkildə mane olur. Məhz Fransaya arxalanan Ermənistan hakimiyyətinin həm Azərbaycana, həm də Rusiyaya qarşı avantürist çıxışları davam edir. Belə ki, ötən ay Nikol Paşinyanın Parisə işgüzar səfəri çərçivəsində "France24" telekanalına müsahibəsindəki anti-Rusiya və anti-Azərbaycan açıqlaması həmin dəstəyin təzahürüdür. Təəssüf ki, Fransanın ermənipərəst hakimiyyəti hayları silahlandırmaqla Cənubi Qafqazda yeni müharibə ocağı yaratmağa çalışır. Ancaq onlar anlamırlar ki, yeni müharibə Ermənistanın bir dövlət kimi məhv olması deməkdir. Çünki bölgədəki mövcud hərbi - siyasi şərait tamamilə Azərbaycanın xeyrinədir. Eyni zamanda, Ermənistanın anti-Rusiya davranışları onu ən ciddi müttəfiqsiz qoyub. Hətta siyasi ekspertlər iddia edirlər ki, Qərblə Rusiyanın Ermənistanda toqquşan maraqlarına görə bu ölkə də Ukrayna və Suriya kimi hərbi poliqona çevrilə bilər.









Paşinyanın Fransaya səfərlgri zamanı xüsusilə Rusiyanı hədəfə alması, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) ünvanına sərt bəyanatlar səsləndirməsi də bundan xəbər verir. Bu bəyanatlar onu göstərir ki, İrəvan bütün imkanları ilə KTMT-ni tərk etməyə tələsir. Eyni zamanda o, Rusiyanı dəfələrlə Ermənistanda hakimiyyət çevrilişi etməyə çalışmaqda ittiham edib.

Qeyd edək ki, son bir neçə ayda İrəvanın Azadlıq meydanında Paşinyanın istefası tələbi ilə mitinqlər keçirilməyə cəhd edilib. Mitinqi "Qarabağ klanı"nın liderləri, rusiyapərəst Serjik Sarksiyanla Robert Koçaryanın tərəfdarları təşkil ediblər. Son günlərdə isə erməni işğalındakı dörd Azərbaycan kəndinin qaytarılması üçün rəsmi İrəvanın siyasi iradəsinin olmasına baxmayaraq Ermənistandakı revanşist qüvvələrin bu qərara təpki göstərməsi ölkədə ciddi qarşıdurma yaradıb. Hətta Paşinyan hakimiyyətinin devrilməsi təhlükəsi mövcuddur.




Siyasi ekspertlərin fikrincə, bu ölkədəki Qərbpərəst qüvvələrlə, Rusiyapərəst qüvvələri arasındakı ziddiyyətin silahlı qarşıdurmaya çevrilməsi Ermənistanı qan çanağına çevirəcək.

***E. Zaman***

# İqor Korotçenko: "Qərbin Azərbaycana qarşı siyasəti fiaskoya uğradı"

**Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində Azərbaycan və Ermənistan arasında sərhədin delimitasiyası prosesinin başlanması fonunda Paşinyana qarşı növbəti etiraz dalğasının Ermənistana qarşı nə ilə yekunlaşacağı haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**

*- İqor Yuryeviç, Azərbaycan və Ermənistan sərhədlərin delimitasiyası prosesinə başladığını və erməni tərəfinin işğal etdiyi 4 kəndin Bakının nəzarətinə qaytarıldığını elan etdikdən sonra Ermənistanın müxtəlif yerlərində və yollarda etiraz aksiyaları keçirilir. Müxalifət yaranmış vəziyyətdən sui-istifadə edərək, odun üstünə yağ tökür. Ermənistanın baş naziri üçün vəziyyətin ciddi bir şeyə çevrilməsi riski varmı?*






- Qeyd etmək vacibdir: Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin ayrıca bölmədə də olsa delimitasiyası və demarkasiyası prosesinin başlanması sülhə doğru hərəkətdə irəliyə doğru mühüm addımdır. Söhbət 1991-ci il Alma-Ata Bəyannaməsində təsbit olunmuş sərhədlərin müəyyən edilməsindən gedir. Bu o deməkdir ki, Ermənistan Azərbaycan ərazisini Azərbaycan SSR sərhədləri daxilində tanıyır.

Delimitasiya prosesinin başlaması və 4 kəndin Ermənistan tərəfindən Azərbaycana qaytarılması Azərbaycan diplomatiyasının və Bakının taktikasının növbəti qələbəsi oldu. Azərbaycan təzyiqləri artırdı. Üstəlik, bu qələbə heç kimin vasitəçiliyi olmadan əldə edilib. Azərbaycanın Ermənistanla birbaşa danışıqlar aparmaq şərtini qoyması və bu yanaşmaya əməl olunması da Azərbaycan diplomatiyasının qələbəsidir. Bakının Qərb aktyorlarının Azərbaycana qarşı sərt təzyiqləri fonunda buna nail olması xüsusilə vacibdir. İndi onlar prosesi manipulyasiya etmək qabiliyyətini itiriblər.

Bu sahədə sərhədlərin delimitasiyasına başlanması həm də Azərbaycanın hərbi-siyasi mövqelərinin gücləndirilməsi deməkdir. Ermənistan indi orada təxribat törədə bilməyəcək, cəhd etsə, dərhal sərt şəkildə yatırılacaq.

İndi Ermənistan hakimiyyətinin Bakının tələbi ilə Azərbaycan ərazilərinə ərazi iddiaları ehtiva edən müddəaları öz Konstitusiyasından çıxarmaq ehtimalı da yüksəkdir.

Gördüyümüz kimi, delimitasiya prosesinin başlanması aparıcı dövlətlərin əksəriyyəti istər Azərbaycana dost, istərsə də Cənubi Qafqazda ikili siyasət yürüdən dövlətlər tərəfindən müsbət qarşılandı. Bu mühüm, müsbət məqamdır.

Eyni zamanda, Ermənistan müxalifəti həqiqətən də sərhədlərin delimitasiyasının başlaması ilə bağlı yaranmış vəziyyətdən istifadə etməyə çalışır. Biz gördük ki, delimitasiya prosesinin başlandığı elan edildikdən sonra bir neçə gün Ermənistanda bu prosesin başladığı zonaya müxalifət qüvvələri toplaşıb. Hələ də respublikanın müxtəlif yerlərində yollar bağlanır, İrəvanda etiraz aksiyaları keçirilir. Qlobal erməni diasporu, o cümlədən Rusiyada yaşayan nümayəndələr də etiraz əhval-ruhiyyəsini gücləndirir. Etirazlarda Erməni Apostol Kilsəsinin ayrı-ayrı ruhaniləri fəal iştirak edirlər.

Paşinyan buna reaksiya verməkdə məcburiyyətindədir və demək olar ki, hər gün onun ərazilərinin Azərbaycana qaytarılmasının, eləcə də delimitasiya prosesinin başlanmasının nə üçün vacib olduğunu və bunun gələcəkdə Ermənistanın suverenliyini gücləndirəcəyini izah etməyə məcburdur.

Eyni zamanda, etirazlar kütləvi və müntəzəm xarakter daşımır. Görünən odur ki, "Qarabağ klanı" ancaq öz mənafeyini güddüyü üçün insanlar etirazlara getmək istəmirlər. İnsanlar sadəcə ondan bezdilər. Müxalifət isə obyektiv olaraq Paşinyan hökumətini devirmək üçün qarşısına qoyduğu vəzifəni həyata keçirə bilmir və illərdir ki, həyata keçirə bilmir. Bəzi səylər göstərsə də, bu səylər cəmiyyətin ümumi dəstəyini almır. Müxalifətin özü isə, bu dəstəyin olmadığını görüb, kifayət qədər süst davranır. O, əsasən istədiyi nəticəni əldə edə bilmir.

Bəli, görürük ki, ultra-radikal qüvvələr də heç yerdə yoxa çıxmayıb. İrəvanda Azərbaycan və Türkiyə bayraqlarının yandırılması ilə bağlı növbəti vəhşi hərəkətin şahidi olduq. Amma praktikanın göstərdiyi kimi, belə radikalların da Paşinyanı devirmək üçün kifayət qədər imkanı yoxdur.

Bildiyiniz kimi, Ermənistanın hazırkı daxili işlər naziri Vahe Qazaryan Nikol Paşinyanın dostudur. Təhlükəsizlik qüvvələrinin loyallığı, ordunun davamlı neytrallığı ilə birlikdə baş nazirə kart-blanş verir və onun verdiyi siyasi qərarların, o cümlədən sərhədin delimitasiyası və demarkasiyasına başlanılmasının həyata keçirilməsi deməkdir.

Ermənistan Milli Təhlükəsizlik Xidməti də Paşinyanın əleyhdarlarına qarşı işləyir. O, nəinki baş verənləri təhlil edir, həm də müxalifətin planları barədə xəbərdarlıq edir. Hakimiyyət gedən proseslərə nəzarət edir.

Amma Ermənistanın baş naziri, görünür, hər halda, təhlükəsiz oynamaq qərarına gəlib. Məlum olduğu kimi, ölkənin Baş Prokurorluğu siyasi və maliyyə imkanları olan müxalifətçilərin daşınmaz əmlakının, avtomobillərinin, maliyyə aktivlərinin müsadirə edilməsini tələb edib. Söhbət Ermənistanın eks-prezidenti Robert Köçəryan, keçmiş maliyyə naziri Qaqik Xaçatryan və keçmiş deputat Qaqik Tsarukyandan gedir. Bu onu göstərir ki, müxalifət mübarizəsində təcrübəyə malik olan Paşinyan anlayır ki, müxalifəti maliyyə resurslarından məhrum etmək onun siyasi məğlubiyyətinə aparan yoldur. Və bu ssenarini həyata keçirir. Parlamentdəki müxalifətin delimitasiyanın başlanmasını şübhə altına almaq cəhdləri də hakim çoxluq tərəfindən əngəllənib.

Son dərəcə diqqətəlayiq haldır ki, Nikol Paşinyan Ermənistana rəhbərlik etdiyi müddətdə dəfələrlə ən dərin siyasi böhranlardan çıxıb, ondan qurtula bilib və üstəlik, siyasi cəhətdən daha da güclənib və güclənir. Müxalifətin onu devirmək cəhdi 6 ildə heç bir nəticə vermədi. Bu onu göstərir ki, baş nazirin həqiqətən də onu dəstəkləyən seçicilər arasında sabit siyasi çoxluğu var. Və bu gün biz marjinal insanların, müxalifətçilərin, "Qarabağ klanı" tərəfdarlarının necə küçələrə çıxdığını görürük, amma indiki baş nazirin hökumətini yıxmaq üçün kritik stabil səs çoxluğu əldə etmək mümkün olmayıb və hələ də mümkün deyil. Bu isə o deməkdir ki, Paşinyan uzun müddətdir bu işin içərisindədir. Və bu reallıqdır.

Nikol Vovayeviç özünün siyasi sağ qalma fenomenini və siyasi proseslərə inteqrasiya etmək qabiliyyətini nümayiş etdirdi və bu, heyrətləndirməyə bilməz. Vaxt keçir və onu yerindən qoparmaq cəhdlərinə baxmayaraq, o, yerində qalmaqda davam edir.

Paşinyan, qəribə də olsa, özünün müəyyən karikaturası fonunda çox maraqlı siyasət, şok təzadlar siyasəti nümayiş etdirir. Bu, bir tərəfdən Ermənistanın Rusiyadan uzaqlaşmasıdır ki, bu da narahatlıq doğurmaya bilməz. Digər tərəfdən, İrəvan tez-tez heç bir əsası olmayan Azərbaycan əleyhinə ittiham xarakterli bəyanatlar verir. Ermənistanın yenidən silahlanmasını aparır. Və eyni zamanda, biz Azərbaycanla sülhə hazır olduğu barədə bəyanatlar eşidirik. İndi də Ermənistan 4 kəndin Azərbaycana qaytarılmasına və sərhədlərin delimitasiyasına başlanmasına razılıq verib. Digər tərəfdən, Aİ-nin daim genişlənən sərhəd monitorinq missiyası var. Belə bir siyasət ziddiyyətlərlə doludur. Nikol Paşinyan "siyasi yağış" axarları arasında sürüşməyi bacarır. Siyasi manevr azadlığını qoruyur.

Onun delimitasiyaya başlamağa razılığı məhz bu siyasi hiylənin təzahürüdür. Bu siyasətdir: bir addım irəli, iki addım geri. Bu isə bir daha Azərbaycanın Ermənistanla tam hüquqlu sülh müqaviləsi bağlamaq üçün həll etdiyi problemlərin mürəkkəbliyini göstərir. İrəvan nümayiş etdirdi ki, o, Bakı ilə sülh gündəliyinə hazırdır, lakin bu istiqamətdə gələcək irəliləyişin uğuru bir çox amillərdən asılıdır, hansı qüvvələrin İrəvanın sonrakı qərarlarında daha çox təsir göstərəcəyindən.

Mən şadam ki, sülhü üçün müsbət siqnallar var. Yaxın vaxtlarda Qazaxıstan ərazisində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü baş tuta bilər. Əhəmiyyətli olan Astananın Qazaxıstanın vasitəçi olmayacağı, sadəcə olaraq danışıqlar üçün platforma təqdim edəcəyi barədə bəyanatıdır. Aydındır ki, Paşinyan danışıqlar üçün Moskvaya getmək istəmir.

Amma Ermənistanın baş naziri Kremlin planlaşdırdığı qarşıdan gələn tədbirlər üçün Moskvaya gəlsəydi, bu, konstruktiv olardı. Onda Vladimir Putinlə çətin məsələləri müzakirə etmək və bəlkə də bəzilərini həll etmək imkanı olardı. Ermənistanın indiki Moskva siyasəti baxımından bu, mümkündürmü? Rusiya rəhbərliyinin mövqeyi dialoq və bütün məsələlərin həlli üçün pəncərəni açıq saxlamaqdır. Və biz buna hazırıq. Ermənistanın bu fürsətdən istifadə edib-etməyəcəyi isə başqa məsələdir.

Yeri gəlmişkən, Moskva ilə İrəvan arasında münasibətlərdə yaranan çətinliklər fonunda ötən gün Rusiya paytaxtında Rusiya və Azərbaycan liderləri arasında yayılan ünsiyyətin video görüntülərinə diqqət yetirməmək olmaz: səmimi, rahat. Vladimir Putinin Rusiyaya səfərinin sonunda azərbaycanlı həmkarını avtomobilinə qədər müşayiət etmək üçün axşam saatlarında şəxsən çıxdığını da göstəriblər. Liderlər ayrılarkən qucaqlaşdılar, bir daha aydın oldu ki, prezidentlər arasında xüsusi yaxınlıq var. Bunlar güclü, izahedici şəkillərdir. Putin və Əliyev eyni siyasi və tarixi miqyaslı şəxsiyyətlərdir. Onlar bir-birini başa düşürlər, bir-birinə güvənirlər, həm rəsmi, həm də qeyri-rəsmi razılaşmalarda bir-birlərinə arxalanırlar. Başa düşürük ki, böyük siyasətdə təsadüflər olmur. Və əgər dövlət kanalında belə kadrlar yayımlanırsa, bu, Rusiya-Azərbaycan münasibətlərinin bu gün yüksəlişdə olduğunu, Azərbaycanın bizim üçün əsl strateji tərəfdaş və müttəfiq olduğunu nümayiş etdirir.

***- Ermənistanın ziddiyyətli siyasəti ilə bağlı dediklərinizi nəzərə alaraq, bu yaxınlarda Çexiya Müdafiə Nazirliyinin nümayəndələrinin əməkdaşlıq məsələlərini müzakirə etmək üçün İrəvana gəldiyi barədə məlumatlar peyda oldu. Bu gün isə Aİ-nin Sülh Fondu vasitəsilə Ermənistana təhlükəsizlik yolunda yardım göstərilməsi ilə bağlı sənədi Macarıstanın əngəllədiyi barədə məlumatlar üzə çıxıb.***

- Viktor Orban məsuliyyətli və effektiv siyasətçi kimi cari geosiyasi hadisələri mükəmməl başa düşür. Macarıstan Türk Dövlətləri Təşkilatında müşahidəçi qismində üzərinə düşən vəzifələrin icrasına cavabdehdir.

Heç kimə sirr deyil ki, Qərbin Ermənistana silah verməkdə məqsədi onu NATO-nun tramplininə çevirməkdir. Çexiya silah sahəsində yaxşı səriştəyə malikdir. Bunlar artilleriya sistemləri, çoxsaylı raket buraxılış sistemləri və aviasiyadır. Hərbi-texniki potensial baxımından Çexiya ciddi oyunçudur. Bu gün Paşinyan silah əldə etmək mənbələrini mümkün qədər şaxələndirir. Deyə bilərik ki, Qərb dövlətləri indi Ermənistana kömək etməklə Paşinyanı erməni Zelenskiyə çevirirlər.

Aprelin 5-də Brüsseldə Ermənistanın baş nazirinin ABŞ dövlət katibi və Avropa Komissiyasının rəhbəri ilə görüşündən sonra mediaya sızanları xatırlayırıq. KİV-də Ermənistanın Qərbə hərbi-texniki inteqrasiyasının yol xəritəsi ortaya çıxıb. Və Ermənistanın postsovet məkanında Qərbin troya atına çevrilməsi haqqında açıq məlumatlar. Biz Ermənistanla Qərb arasında bu sahədə səfərlər və danışıqlar görürük. Proses davam edir. Bu baxımdan, Azərbaycan prezidentinin Ermənistanı silahlandırmağa çalışanların ünvanına söylədiyi çox ağır sözlərə diqqət yetirməmək mümkün deyil. Və bu, Bakının həm İrəvana, həm də Qərb himayədarlarına göndərdiyi ciddi siqnaldır ki, "qayığı silkələmək" lazım deyil, buna cavab çox sərt olacaq.

Kifayət qədər maraqlıdır ki, Fransa səfiri qısa demarşdan və Makronun Azərbaycanla münasibətlərə dair məsləhətləşmələrə çağırışından sonra Bakıya qayıtmağa məcbur olub. Yeni Parisin Bakıya yenidən təzyiq göstərmək cəhdləri fiasko ilə başa çatır. Fransa deflyasiya edir. Bu, bir daha onu göstərir ki, Azərbaycan hakimiyyətinin indiki halda qəti mövqeyi opponentləri bunu qəbul etməyə məcbur edir. Öz milli maraqlarını müdafiə etmək üçün aydın, sərt siyasət Azərbaycana mühüm üstünlüklər verir. O cümlədən Ermənistan-Azərbaycan nizamlanmasında.

Azərbaycanın ABŞ-ın təzyiqlərinin öhdəsindən necə gəldiyinə gəlincə, qeyd etmək lazımdır ki, Vaşinqton adətən uzunmüddətli oynayır. Bayden administrasiyası Bakının ölkədə Amerikanın 5-ci kolonunun yaradılmasına necə sərt reaksiya verdiyini heç vaxt unutmayacaq. Belə şeylər adətən Vaşinqtonda bağışlanmır. Ona görə də Azərbaycan rahatlaşmamalıdır. Artıq Azərbaycanın siyasi və təhlükəsizlik elitasının nümayəndələrinə qarşı sanksiyalar tətbiq etmək cəhdləri var. Bunun arxasında təkcə ermənipərəst lobbiçilər deyil, həm də Azərbaycanın güclənməsini bəyənməyən nüfuzlu dairələr dayana bilər.

Dünyada, o cümlədən Cənubi Qafqaz regionunda mürəkkəb çoxsəviyyəli proseslər gedir. Dəyişən tələtümlü dünyada çox şey məhv olur və yeniləri yaranır. Amma dünya nizamı dəyişəndə, həm İlham Əliyevin, həm də Vladimir Putinin nümayiş etdirdiyi kimi, öz milli maraqlarını müdafiə siyasətinə ciddi, ciddi riayət etmək çox vacibdir.

***Tərcümə - Elçin Bayramlı***

# Əli Kərimlinin siyasətdən getməyə cəsarəti çata bilərmi?

**Hər bir məsələ qanunla tənzimlənir və qanunla öz həllini tapır. Qanundan kənar istənilən hal yol verilməzdir, bu hal cinayət məsuliyyəti yaradır. Təəssüflər olsun ki, bəzi özlərindən razı məxluqlar, xüsusilə də dağıdıcı müxalifət qanunlara əməl etmək istəmirlər. Onlar daha çox qanunsuz vasitələrdən istifadə etməklə özlərini idarəedilməz məxluqlar kimi tanıtmış olurlar. Təbii ki, belə məqam da qanun öz sözünü deyir, hay-küy də bundan sonra başlayır. Həbs olunan kimi şəbəkənin fəalla trolları sosial şəbəkələrə çıxıb, dezinformasiya xarakterli informasiyalar statuslar yazır, videolara paylaşırlar.**



Ənənələrinə uyğun olaraq yenə də 5 may mitinq şousunun baş tutmamasından sonra bütün varlıqları ilə qarayaxma kampaniyası təşkil ediblər. Guya Bakı şəhər icra hakimiyyəti onların sərbəst toplaşmaq hüquqlarını pozub. Lakin Ə. Kərimli, C.Həsənli, G.Hacıbəyli, F.Qəhrəmanlı, S.Həzi və digərləri anlamırlar ki mənasız hərəkətləri ilə özlərini cəmiyyətin gözündən salmış olurlar. Çünki ictimaiyyət görür ki, dağıdıcı müxalifət şəhərin mərkəzində aksiya keçirməyi israr edir. Halbuki, insanların və avtomabillərin sıx hərəkət etdiyi ərazilər də kütləvi tədbirlərin keçirilməsi yol verilməzdir. Dağıdıcı müxalifət isə ictimai maraqları və vacib hesab edilən qanuni tələbləri qəbul etmək istəmirlər. Əksinə görünən ondan ibarətdir ki, onlar növbəti mitinq şousu təşkil etməklə özlərini abırsız və həyasız küçə adamı kimi aparırlar. Söz yox ki, gözlənildiyi kimi dağıdıcı müxalifətin planlaşdırdığı aksiyanın baş tutmayacağı əvvəlcədən bəlli idi.

Birincisi, Azərbaycan cəmiyyəti dağıdıcı müxalifətin simasına və fəaliyyətinə bələd olduğundan, onların mövqelərinə hər hansı formada bölüşmürlər. İkincisi, AXCP, Müsavat, Milli Şura sosial baza baxımından ciddi problemlər yaşayırlar. Düzdür, planlaşdırılan, lakin keçirilməsi məqbul hesab edilməyən mitinq öncəsi bəzi trollar vəziyyəti dəyişməyə və aksiyaya insan cəlb etmək üçün geniş iş aparırdılar. Deməli olar ki, sosial şəbəkələr gecə gündüz mitinqlərə çağırış xarakterli statuslar yazır, videolar paylaşırdılar. Lakin aydın təfəkkürlü, işıqlı sosial şəbəkə insanları dağıdıcı ünsürlərin statuslarını ironiya ilə qarşılayır, videolarını məsxərə obyektinə çevirdilər. Çünki əksər statusları yalvarış xarakterlidir.Başa düşmürlər ki, yalvarmaqla, ona buna pul verməklə sosial baza toplamaq mümkün deyil.

**Zamanında Əli Kərimlinin liderinin dedyi, "Pul qoyub, pul götürmək olar, ancaq pul qoyub, siyasi divident qazanmaq olmaz" ....**

Zamanın da elə Əli Kərimlinin lideri olmuş AXCP-nin mərhum sədri Əbülfəz Elçibəy başqa rəqib partiya sədrinə "Pul qoyub, pul götürmək olar, ancaq pul qoyub, siyasi divident qazanmaq olmaz" deyə bildirmişdir. AXCP -dəki trollar liderinin tövsiyyələrini belə qulaqardına vurduqlarını nümayiş etdirirlər. AXCP sədr müavini Seymur Həzi gördün statusunda insanlara necə yalvarır: "Sona xala, Əhməd dayı xahiş edirik mitinqə gəlin". Bu əndrabadi məxluq anlayır ki, yalvar yaxarla nəticə əldə edə bilməyəcəklər. Ona görə də, növbəti statusunda dövləti hədəf seçir: "Sona xala, Əhməd dayı etiraz edə bilmirsə, bu dövlət hüquqi dövlət sayıla bilməz".

S.Həzinin mitinqlə bağlı daha çox can-fəşanlıq etməsi onu göstərir ki, Ə,Kərimli aksiyaya mitinqçi toplamaq tapşırığını ona verib. O da etimadı doğrulmaq üçün dəridən qabıqdan çıxır. Gah insanları mitinqə gəlmədiklərinə görə şantaj edir, gah yalvarır, gah da hakimiyyətə qarşı özünün belə anlamadığı əsassız iddialarla ittiham edir. Lakin bu məxluq qanmır ki, siyasi partiyalara üzv ürəkdən olmalıdır. İnsanların rəğbətini, etimadını qazanmaq lazımdır. AXCP sədri Əli Kərimli isə yanlış, milli maraqlara zidd siyasət aparmaqla və partiya funksionerləri yanlış mövqe ortaya qoymaqla özlərini ictimai rəyin gözündən salıblar. Nə qədər yalvar yaxar etsəniz və pul para xərcləsəniz də, ictimaiyyətin rəğbətini qazana bilməyəcəksiniz. Çünki batmaqda olan gəmini xilas etmək mümkün olmadığı kimi sizlərində ləkələnmiş imicinizi salfaşdırmaq mümkünsüzdür.

Çıxış yolu sizlərin siyasətə əlvida deməyiniz olar. Bu təbii ki sizlər üçün çətindir. Çünki dolanışığınız və yaşayışınız siyasət də mənasız yerə var-gəl etməyinizdən çıxır. Ancaq halallıqla, zəhmət çəkməklə pul qazanmaq və yaşayışını təmin etmək olar. Yetər ki cəhd edəsən və cəsarətli olasan. Düzdür bu yolu seçmək C.Həsənli, Ə.Kərimli, F.Qəhrəmanlı və digərləri üçün çətindir. Ömrü boyu siyasət adı altında satqılıq və xəyanət etməklə qrant alan şəxsin və ya şəxslərin birdən birə siyasətə əlvida deməsi çətin görünür. Lakin qeyd etdiyimiz kimi ictimaiyyətin qınağından və tənəsindən qurtulmaq üçün hər cür imkandan istifadə etməyə dəyər.

***İLHAM ƏLİYEV***

# "Dünyanın ürəyi Azərbaycan paytaxtında döyünəcək"

*MÜNASİBƏT*




"COP29 tədbirinə Azərbaycanın ev sahibliyi etməsi əslində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və xüsusi çəkisinin bir göstəricisidir. Çünki bu tədbirə ev sahibliyi etmək üçün Azərbaycan dünya ölkələrinin hər birinin müsbət rəyini almalı idi. Bu prosesdə bizə mane ola biləcək tərəf Ermənistan ola bilərdi. Ancaq o da prosesdən kənarda dayandı. Azərbaycanla Ermənistan arasında aparılan ikitərəfli danışıqlar və əldə edilmiş razılaşmalar nəticəsində Ermənistan da Azərbaycanın bu tədbiri keçirməsinə etiraz etmədi və bu ilin noyabr ayında dünyanın ən böyük tədbirinə Azərbaycan ev sahibliyi edəcək". Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib.

Deputat sözlərinə belə davam edib: "Bu işə ev sahibliyi etmək üçün Azərbaycanın iqtisadi gücü var, Azərbaycanın infrastruktur potensialı və beynəlxalq aləmdə nüfuzu kifayət qədər böyükdür. Noyabr ayında 80 mindən çox adam iki həftə ərzində Azərbaycanın paytaxtında olacaq. Dünyanın əksər dövlətlərinin rəhbərləri, prezidentləri, baş nazirləri ölkəmizə təşrif buyuracaq və sözün həqiqi mənasında dünyanın ürəyi Azərbaycan paytaxtında döyünəcək.

Nəzərə alsaq ki, bu tədbir BMT-nin iqlim dəyişiklikləri ilə bağlı bir tədbir idi. Adətən ənənəvi enerji potensialına malik olan dövlətlərin belə tədbir keçirməsinə qısqanclıqla yanaşırlar. Ancaq Azərbaycanı bu prosesdə bütün dövlətlər dəstəklədi. Bunun əsas səbəblərindən biri də onunla bağlıdır ki, bəli, Azərbaycan zəngin neft və qaz potensialına malik olsa da belə, amma qeyri-ənənəvi enerji sahəsində də bizim çox mühüm imkanlarımız var. Azərbaycanın çox böyük külək, günəş və hidrogen potensialı mövcuddur. Artıq Azərbaycan Avropa ölkələrinə qeyri-ənənəvi enerji mənbələrinin ixracı ilə bağlı ilkin addımlar atmağa başlayıb. Bu sahədə bu proses başlanıb. Həm də çox mühüm müqavilələr imzalanıb və bütün bunları nəzərə aldıqda görmək olur ki, Azərbaycan həm ənənəvi, həm də qeyri-ənənəvi enerji mənbələrinə malikdir və Azərbaycan bu tədbiri keçirməklə bütün dünyaya belə bir ismarıc verir ki bəli biz iqlim dəyişiklikləri problemlərinə çox ciddi yanaşırıq və bu prosesə öz töhfəmizi vermək istəyirik. Sağlam dünya görmək istəyirik və Azərbaycan da bütün imkanlarını səfərbər edib COP29 tədbiri çərçivəsində iqlim dəyişiklikləri ilə bağlı mühüm qərarların qəbuluna nail olmağı hədəf seçib.

Hesab edirəm ki, bu tədbir çərçivəsində bir sıra mühüm siyasi və hərbi problemlərin müzakirəsi üçün də imkanlar açıla bilər. Nəzərə alsaq ki, həm Rusiya, həm də Ukrayna prezidenti tədbirə dəvət alıb. Eyni zamanda Azərbaycan Prezidenti cənab İlham Əliyev vurğulayıb ki, noyabr ayına qədər biz Ermənistanla sülh müqaviləsinin imzalanmasına çox böyük ümidlər bəsləyirik və bütün bunların reallaşacağı təqdirdə istisna deyildir ki, Ermənistanın baş naziri Nikol Paşinyan da bu tədbirə qatıla bilsin. Yəni, zaman hər şeyi göstərəcək. Əsas odur ki, Azərbaycan bu günləri dünyanı narahat edən ən mürəkkəb, ən qəliz problemlərin həlli yollarının tapıldığı bir məkana çevrilib".

***Ayşən Vəli***



# Ver sözə ehya ki...

**MƏTANƏT**

**Hər dəfə bu barədə danışırıq, lap yaxşı, bir dəfə də Ümumdünya Mətbuat və Söz Azadlığı Günündə danışaq. Bəlkə bizi eşidən, söylədiyimizə qulaq verən olar. Yaxşı, nümunəvi mətbuat bizimdir onsuz da. Varımızdır, həm də qürurumuzdur. Eyni zamanda sözü sözlükdən çıxaran, yalanı, iftiranı, "reklamı" gündəmə gətirən, "like" xətrinə nələrdən keçən mətbuatımız da var, onlardan danışaq ki, bəlkə özlərinə bir qədər çəki-düzən verə bilələr. Xatırlayalar ki, bu, mətbuatdır, burada hər kəs istədiyini danışa, ağlına, ağzına gələni yaza bilməz...**

Ölkəmizdə azad mətbuata böyük yol açılıb, müxtəlif qanunlarla jurnalistlərin hüquqları tənzimlənib, onlar hərtərəfli qayğı ilə əhatə olunublar. Mətbuatımızdan senzura illərdir ki, götürülüb. Ölkəmizdə azad mətbuat, azad söz mövcuddur. Mətbuat dördüncü hakimiyyət olduğu üçün hər zaman birinci hakimiyyətin də dostu olub, neqativ halların üzə çıxmasına, qaranlıqlara işıq salınmasına kömək edib.

Biz illərlə mətbuatı dediyi sözə dəyər verən bir vasitə olaraq tanımışıq. Mətbuatın sözü söz olub, bu sözün dəyəri, kəsəri olub. Yeri gələndə mətbuatımız sözlə tarix yazıb, dünəni təmsil edib. Yeri gələndə bu gün olub. Bütün hadisələrin içərisində olub, onların mahiyyətini ortaya çıxarıb. Yeri gələndə mətbuat yol göstərən olub. Xalqı, milləti arxasınca həqiqətlərə doğru aparıb. Maarif, səhiyyə olub, insanların təhsilinin, sağlamlığının qeydinə qalıb. Yeri gələndə insanları aldadanlara qarşı silah olub. Həmin silahla gerçəyin gözünü açıb.

Sözü söz dəyərində olub. Böyük sairimiz Məhəmməd Füzulinin sözə verdiyi dəyəri mətbuat nümayəndələrimiz hər bir yazısında, manşetində daim qoruyub saxlayıb.

Bəs bu gün? Sözə ehya verənlər varmı? Onun dəyərini, mahiyyətini, verdiyi, dediyi sözün kəsəri qalsın bir yana, həqiqətə uyğun olduğunun arxasında dayanan nə qədər mətbuat nümayəndəsi var? Çox az... Təəssüf ki, onların sayı gündən-günə azalır. Necə ki, qəzet, qəzetçilik dövrü zaman-zaman tarixə qovuşur, elə sözün dəyəri də sanki o qəzetlərlə birlikdə tarixin arxivinə yollanır.

Lakin söhbət mətbuatdan gedirsə, istər qəzet, istər müxtəlif informasiya saytları, portalları, radio-televiziyalar olsun, yazılan, söylənilən sözün mahiyyətinə varmayacaqsa, onda hansı mətbuatdan söhbət gedə bilər? Müasir dövrdə mətbu məkanı yağışdan sonra çoxalan göbələk kimi bürüyən "mətbu orqanlar" nə yazdıqlarının, necə yazdıqlarının, bu yazdıqları ilə xalqa nə verdiklərinin fərqinə vararlarmı görəsən?

Çığıran sərlövhələr, "məni aç, oxu!" deyib üsyan edən başlıqlar, lakin içərisi boş, əhəmiyyətsiz xəbərlər kimə lazımdır? "Like" toplamaq üçün mətbuatımıza ləkə salan, yalan informasiya yaymaqla insanlar arasında təşviş yaradan mətbuat kimə lazımdır? Mətbu orqan statusundan çıxıb özünə məkan olaraq sosial şəbəkələri seçən (əslində dövrümüzə görə sosial şəbəkələr də lazımdır, lakin düzgün istifadə olunarsa) "mətbuat" nəyin arxasınca qaçır? Axı onların sosial şəbəkələrdə nəyi axtardıqları məlumdur. Kütləni yaxalamağa, boş-mənasız xəbərlərlə insanlardan "like" toplamağamı?

Budurmu günümüzün mətbuatı, jurnalistikası? Budurmu Həsən bəy Zərdabinin, Mirzə Cəlilin, Sabirin, Üzeyirin və onlar kimi onlarla ziyalının həyatı, sağlamlığı bahasına yaratdığı mətbuata verilən qiymət?

Unutmayaq ki:
Artıran söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.

Yəni, sözün qiymətini bilən, ona dəyər verən insan özünə dəyər vermiş olur. Söz hansı dəyərdə olsa, sahibini də o dəyərdə edər. İnsana onun danışdığı sözə görə qiymət verilir.

Və yaxud:
Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol uyqudan bidar söz.

Yəni, sən sözü canlandır, dirilt ki, səni də ölüm yuxusu tutanda o səni diriltsin. Qiymətli sözlər danış ki, öləndən sonra sözlərin hər dəfə xatırlandıqca dirilmiş olasan.

Təəssüf ki, günümüzdə öləndən sonra xatırlanacaq az sayda söz sahibləri var. Bu gün sözü öldürənlər isə o sözlərlə birlikdə hər gün ölür, gömülürlər.

Bizim üçün bu əziz gündə bunlardan danışmaq istəməsək də, lakin danışdıq. Çünki deməməyin, susmağın özü də ölüm kimidir...

# Sürücülük imtahanı: şəffaflıq təmin olunurmu?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması istiqaməti çərçivəsində hazırlanıb*





Avtomobili təhlükəsiz idarə etməsi, yol hərəkətinin təşkilinə mane olmaması, qəzalarda ölməməsi və öldürməməsi üçün hər kəsin savadlı sürücü olması şərtdir. Sürücü mütləq şəkildə yol hərəkəti qaydalarını bilməli, qəza anında çevik reaksiya qabiliyyətinə malik olmalıdır. Son bir neçə ildə xüsusilə gənclərin sürücülük vəsiqəsi imtahanlarına girməsi, vəsiqəsini biliyi ilə alması halları çoxalıb. İmtahana hazırlaşanlar üçün həm dövlət nəzdində olan sürücülük məktəblərində, həm də özəl tədris kurslarında imkan yaradılıb. Nəzəri imtahana təxminən 5 həftəlik tədris planı ilə hazırlıq prosesi aparılır. Nəzəriyyə imtahanını keçdikdən sonra isə növbədə praktiki imtahandır. Proses barədə Sürücülük.az Tədris Mərkəzinin nəzəriyyə müəllimi Elmir Nəcəfovla söhbətləşdik.

***-Elmir müəllim, məncə sürücülük vəsiqəsi almağa indi maraq artıb, müşahidələrimə görə indi daha çox xanımlar can atır. Necə bilirsiniz, kişilər ya xanımlar daha bacarıqlıdır bu məsələdə?***

-Sürücülük vəsiqəsini özü oxuyub nəzəriyyə imtahanından keçmək istəyənlərin xanımların sayı bəylərdən daha çoxdur. Bacarığa gəldikdə isə bu insanın özündən asılı olan bir şeydir. Yəni elə bir insan var ki, bacarıqlıdır, məsuliyyətlidir, həvəslidir, yəni qarşısına məqsəd qoyur və bu məqsədə əziyyətlər çəkərək nail olur. Xanım oldu, kişi oldu, fərqi yoxdur, bu insanın özündən asılı olan bir şeydir. Mənim tələbələrim arasında xanımlar da var ki, mən onlara əvvəlcədən bildirirəm ki, sizin nəticəniz tez olacaq. Bəylər də var ki, mən onlara əvvəlcədən bilirəm ki, sizin nəticəniz tez olacaq. Mənim tələbələrim arasında kişi və xanım olmasından asılı olmayaraq birinci imtahanından keçən çoxdur. Doğrusu, mən onlar arasında bir fərq qoymaq istəmirəm. Çünki hər bir insanın qavraması eyni ola bilməz. Fərqli insanların məntiqi də eyni ola bilməz. Elə insan var ki, oxuduğunu bir dəfə oxumaqla tam başa düşür. Elə insan var ki, beş dəfə oxuyur, başa düşür. Amma elə insan da var ki, 10 dəfə oxuyur, amma yarımçıq başa düşür. Yəni bu insandan insana dəyişir.

***-Əvvəl belə bir mif vardı ki Azərbaycanda sürücülük vəsiqəsini oxuyub ala bilməzsən. Amma son illər sanki tabu dağıldı, elə deyil?***

-Əvvəllər bəli, özü oxuyub hazırlaşan şəxslərin sayı az idi. Amma hal-hazırkı vəziyyətdə, 2024-cü ildəyik və həmin nəticələr bu il demək olar ki, qat-qat artıqdır. Bizim kursumuza da son illərdə müraciət çox artıb. Sürücülük.az Tədris Mərkəzi hər ay onlarla tələbənin imtahandan keçməsinə nail olur. Həm kursumuzun rəhbəri Cavidan Əhmədov, həm də biz müəllimlər, yollarda daha çox savadlı sürücünün olmasına çalışırıq. Sürücülük vəsiqəsini öz bacarığı ilə almaq istəyənlər, həm nəzəriyyə dərslərinə, həm də praktiki təlimlərə yazılır. Mənim tələbələrimin həm nəzəriyyə imtahanı özü keçir, həm də təlimlərə gedir, praktiki imtahandan da özləri keçir.

Keçmiş illərə nəzərən indiki illərdə bəli, özü oxuyub hazırlaşmaq istəyənlər çoxdur. Bunların da demək olar ki, faiz dərəcəsinə görə 60 faiz xanımlardır, 40 faiz bəylərdir. Yəni, o doğudur ki, xanımlar daha çoxluq təşkil edir. Elə xanım var, evdar qadındır, elə xanımlar var ki, işləyir, amma onlar sürücülük dərslərinə də vaxt ayırırlar, özləri oxuyurlar. Bunun da başlıca səbəbi onların savadlı sürücü olmaq istəməsidir. Mən həmişə tələbələrimə bildirirəm ki, savadlı sürücü olmaq lazımdır. Kor-koranə sürücü olmağın sonu yaxşı qurtarmır. savadlı olmaq şərtdir. Qaydaları daha dərindən öyrənib onu yollarda tətbiq etmək lazımdır. Ola bilər ki, qaydanı bilir, amma yolda tətbiq edə bilmir, tətbiq etməsi zəifdir, çünki təcrübəsi azdır. Bunun üçün də daha çox nəqliyyat vasitəsi idarə etməlidir ki, təcrübə qazansın.

***-İddia edirlər ki, imtahan mərkəzlərində imtahana gedənlərə maneçilik törədilir, imtahandan keçmək olmur. Mən bunun yalan olduğunu bilirəm, çünki özüm də bu prosesdə iştirak etmişəm, hər iki imtahandan keçib sürücülük vəsiqəsi almışam, imtahanlar tam elektronlaşdırılıb, müdaxilə yoxdur. Bəs bu stiqma, narazılıq nədən yaranır insanlarda?***

-Qətiyyən mane olunmur. Hal-hazırkı dövrdə imtahanlar çox səliqəli, düzgün, sistemli şəkildə təşkil edilir. Şəxs qaydaları düzgün bilirsə, düzgün tətbiq edə bilirsə və imtahanda həyəcanlanmır, özünü itirmir, oxuduqlarını tam başa düşür və başa düşdüklərini də imtahanda tətbiq edir. İmtahanda hamısı normal suallar olur. Amma nisbətən çətin suallar da olmalıdır. Çünki bu, imtahandır. Biz imtahan veririksə, burda çətin də, asan sual da olur, eləcə də orta səviyyəli suallar da olur. Bu da imtahan verəcək olan şəxsin qaydaları bilməsindən asılıdır. Nə dərəcədə bilir, neçə faiz bilir ona nəzərən də gedib imtahanda iştirak edir. Əgər qaydaları zəif bilirsə, tətbiq etməsi zəifdirsə, imtahandan keçməsi də bir az gec olacaq.

Yenə də deyirəm, qaydanı yaxşı bilən imtahandan tez keçir. Prosesi bilməyən hər bir şəxs iddialı ifadələr işlədə bilər. Amma sistem elektron olaraq qurulub, imtahan mərkəzləri yeni avadanlıqlarla, sensor monitorlarla təchiz edilib. İnsanlar çox rahat formada gedib imtahan verir. Nəzəri imtahanda ümumi 10 sual olur, 15 dəqiqə vaxt verilir. Bu 10 sualdan 9 suala düzgün cavab verməl lazımdır ki, siz nəzəriyyə imtahanını keçə biləsiniz. Sizin 1 səhv haqqınız var, əgər ikinci dəfə səhv etsəniz avtomatik olaraq monitor bloklanır və siz imtahandan kəsilirsiniz. Lakin 9 ardıcıl düz cavab olduqca ekran yaşıl rəng olur və sizin imtahanı uğurla keçməyiniz barədə qeyd yazılır.

***-Zənnimcə müəllimsiz imtahana hazırlaşmaq çətin olur, çünki bu sahədə olan yeganə vəsait çox qəliz dildə yazılıb. Siz nəzəriyyədən dərs verirsiniz, necə fikirləşirsiniz, müəllimsiz tək hazırlaşıb imtahandan keçmək olar?***

-Ümumiyyətlə, biz bir sahəyə başlayırıqsa, bunu oxuyub öyrənmək istəyiriksə, təbii ki, bizim çətinliklərimiz olacaq. Bu normal bir şeydir. Müəllimlə hazırlaşmaq ona görə rahatdır ki, müəllim hər bir xırdalığı tələbələrə bildirir. Mənimsəməyin asan yollarını aşılayır, yadda qalma metodikalarını tədris edir, testləri işləməyin optimal variantlarını öyrədir. Təbii ki, buna görə müəllimlə hazırlaşmaq daha effektli olur. Özü hazırlaşmağa gəldikdə isə bu insanın özündən asılı olan bir şeydir. Bir daha vurğulamaq istəyirəm ki, elə insan var ki, məntiqi güclüdür, oxuduğunu dərk edə bilir, testləri canlandıra və həll edə bilir və bu zaman o oxuduğu qəliz də olsa başa düşür, dərk eləyir. Əgər bunları bacarırsa təbii ki özü də hazırlaşa bilər.

Lakin özü hazırlaşmaq istəyən şəxslərdə boşluqlar olur, həmin bu boşluqları da doldurmaq üçün sonra müəllimlərə müraciət edirlər və müəllimlər də həmin şəxslərlə sual-cavab edəndə bilir ki, bu şəxsdə hansı hissələrdə boşluqlar var, o boşluqları doldurur. Əlbəttə ki, müəllimlə hazırlaşmaq daha effektli olur. Bu zaman tələbə çox da əziyyət çəkmir. Özü hazırlaşanlar nisbətən əziyyət çəkirlər, çünki başa düşmədikləri çox incəliklər olur, bunu da zamanla başa düşürlər. Müəllimlə hazırlaşanda müəllim dərsi keçir, tələbə başa düşmədiyini soruşur, müəllim təkrar-təkrar izah verir.

***-Praktiki imtahan necə, sizcə obyektiv aparılır? Mənim fikrimi soruşacaq olsanız, məncə obyektivdir, çünki imtahan mərkəzində praktiki imtahanda məni haqlı olaraq iki dəfə kəsiblər, inspektor kəsilməyimizn səbəblərini də izah etdi, obyektiv olduğuna əmin oldum. Amma son imtahanda bütün tapşırıqlara cavab verdiyim üçün keçdim.***

-Məncə də praktiki imtahan çox düzgün bir şəkildə aparılır. Çünki mən özüm də praktiki imtahanda iştirak etmişəm vaxtilə və prosesi gözəl bilirəm. İndiki dövrümüzdə sistem daha da inkişaf edib. Praktiki imtahanda şəxs gərək avtomobili düzgün idarə edə bilsin. Sürmə vərdişi olmalıdır ki, praktiki imtahanda çətinlik çəkməsin. Əgər bir şəxs avtomobili düzgün bir şəkildə idarə edə bilirsə, parklanmanı düzgün edirsə, zolaqlarda yerləşməni düzgün həyata keçirirsə, manevrlər edərkən dönmə göstəricilərindən istifadə edirsə, heç bir qayda pozuntusu etmirsə, praktiki imtahanda qaydalar çərçivəsində hərəkət edirsə, o şəxs imtahandan kəsilə bilməz.

Çünki nə edirsə qaydalar çərçivəsində edir hamısını və o imtahanda tələbənin yanında müəllim də oturur və müəllim prosesə nəzarət edir. Əgər tələbə qayda pozuntusu edirsə, imtahan nəzarətçisi bildirir ki qayda pozuntusu etdin. Nəzarətçi imtahanın yekununa qədər tələbənin etdiyi səhvləri və düzləri qeyd edir, axırda da yekun qərara gəlirlər ki, tələbə imtahandan keçdi, yoxsa yox. Tələbələrimiz olub ki, praktiki imtahana gedib və elə ilk imtahanda keçib. Elə şəxslər var ki, gec keçir. Bu, insanın sürmə vərdişindən asılıdır. Ola bilər ki, bu şəxsin sürmə vərdişi çoxdur, qaydaları bilir və onu düzgün tətbiq edə bilir. Bəli, bu adam gedib özü praktiki imtahandan problemsiz keçə bilir. Bizim kursumuzun təlim müəllimləri də var, tələbələr təlim müəllimlərinin dərslərinə yazırlar, sürmə təlimlərinə gedirlər, praktiki imtahan üçün sürmə vərdişlərini artırırlar. Mənim fikrimcə, bu çox gözəl bir şeydir ki, tələbə sürməyi bilir, yollarda hərəkət və davranış qaydalarını bilir və tətbiq edir.

***-Qanuni yolla, oxuyaraq, imtahanlarını özü verərək vəsiqə alanlara qarşı aqressiya var yollarda, onları asta və xam hesab edirlər, qəza şəraiti yaratmaqda ittiham edirlər. Bu qınaq nədən yaranır?***

-Bu ifadələri işlədən şəxslər yol hərəkəti qaydalarını bilməyən sürücülərdir. Yol hərəkəti qaydalarını bilmirlər və bilənlər tətbiq edəndə qıcıqlanırlar. Bu ifadələri işlətməkləri düzgün deyil. Hər bir tələbəmiz bilir ki, yollarda hərəkət sürətinə, zolaqlarda yerləşməyə, nişanlara və tələblərə əməl etməsə nə baş verər və o bunu bildiyi üçün də çox məsuliyyətli olur. Çünki bir insan əziyyət çəkib oxuyub, yol hərəkəti qaydalarını öyrənib və indi də onu yolda tətbiq edir, qaydalar çərçivəsində hərəkət edir. Bu çox təqdirəlayiq haldır, alqışlanmalı vəziyyətdir və yol hərəkəti qaydalarını bilən insanlar onları təqdir edir. Bəzən iddia edə bilərlər ki, hansısa sürücü xamdır, yaxud da yolda asta gedir və s. Bunlar əsas deyil, təcrübə zamanla qazanılır, əsas olan qaydaları bilməkdir və imtahandan keçən tələbələr qaydaları bildiyinə görə keçir. Onlara qarşı iddiaları olan insanların 90 faizi, hətta 99 faizi yol hərəkəti qaydalarını bilməyən sürücülərdir ki, belə ifadələr işlədirlər. Onların özlərini qınamaq lazımdır, bilmədiklərini öyrənmədikləri üçün.

***-Qayda bilməyən, yol nizamını pozan sürücülər də çoxdur, bilərəkdən ya bilməyərəkdən yol hərəkətinin təşkilinə mane olurlar. Onlar necə olsun bəs? Ya yola çıxmamalı, ya da öyrənməlidirlər, ayrı yolu yoxdur.***

-Ola bilər ki, sürücülük vəsiqəsi var, amma yol hərəkəti qaydalarını yaxşı bilmir. Məsləhət görürəm ki, nəzəriyyə kitabını alsınlar, maraqlansınlar, oxusunlar, qaydaları öyrənsinlər. Qaydaları öyrənmək onların həm savadını artırır, üstəlik əlavə ödənişlər olmur, yəni cərimələnmirlər, qəzancları ciblərində qalır. Məsləhət görürəm ki, hər bir sürücü yol hərəkət qaydasını düzgün şəkildə bilsin və o bildiyi qaydaları da düzgün bir şəkildə tətbiq edə bilsin yollarda. Sürücülərdə sürücü mədəniyyəti də olmalıdır. Mən özüm də şəhərdə maşın sürəndə baxıram ki, həqiqətən də bir çox sürücülərdə mədəniyyət olmur. Yəni bunun da hamısının başlıca səbəbkarı yol hərəkəti qaydalarını bilməmələridir. Qaydaları bilmədikləri üçün də necə istəyirlər elə də sürürlər. Yəni burada da qəza şəraiti artır, qəzaya səbəbkar ola bilirlər. Ölkəmizdə bu yaxın zamanda zəncirvari bir qəza olmuşdu, yaşayış məntəqəsi idi, amma sürət həddini aşmışdı və 10-12 nəqliyyat vasitəsini zədələmişdi. Bunun hamısı nədən irəli gəlir? Təbii ki, qaydaları bilməmələrindən irəli gəlir. Qaydaları bilsə, yaşayış məntəqəsində sürətin 60 km\s-dan çox olmadığını bilsə, zolaqlarda yerləşməni düzgün bilsə heç bir qəza olmaz.

Vəsiqəni harada alırsan al, yol hərəkəti qaydaları beynəlxalqdır. Ola bilər ki, vətəndaşın sürücülük vəsiqəsi var, yəni bizim ölkədə alıb vəsiqəsini, amma xarici ölkədə avtomobil idarə edir. Problem olmayacaq, dediyim kimi qaydalar beynəlxalqdır. Hər bir ölkənin qaydalarda kiçik dəyişiklikləri olur, lakin ümumilikdə bütün dünyada yol hərəkətinin təşkili, nişanlar, məlumat lövhələri beynəlxalqdır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
3 may
2024-cü il

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Dəniz suyundan içməli su alınması nə zaman tətbiq olunacaq?



*MÜNASİBƏT*

”Quraqlıq dünyanın qlobal problemlərindən biridir”. Bu sözləri SİA-ya açıqlamasında Ekoloq, Jurnalistlər Birliyinin sədri Cəmşid Bəxtiyar deyib. O bildirib ki, quraqlıqla mübarizənin hal-hazırda xüsusi təsirə malik hər hansı forması yoxdur: ”Sadəcə olaraq dünya ekoloqlarını narahat edən bu problemin qarşısının alınması yönündə müxtəlif təkliflər mövcuddur. Onlardan biri süni yağış yağdırma metodlarının tətbiq olunmasıdır. Bu metodlar üzərində alimlərin hər hansı cəhdləri mövcuddur. Müxtəlif təkliflər var. Hətta süni yağış yağdırmaqla bağlı bəzən mövcud formalardan istifadə olunur. Bir dəfə Amerikanın Florida ştatında süni yağış yağdırmaq üsullarından biri tətbiq olunub. Bu, bir çox fəsadlarla nəticələnəndən sonra, hətta bunu dövlət orqanları əhalidən gizlətsə də, hadisə barədə insanlara sirləri faş etmişdi. Sonralar bununla cavabdeh olan şəxslər məsuliyyətə cəlb olundular.

Bu metodların fəsadsız ötüşməsi də mümkün deyil. Bu üsullar üzərində alimlər hələ də baş sındırırlar ki, hansı formada, necə edək ki, süni yağışlar fəlakətlərlə nəticələnməsin. Ona görə də süni yağış yağdırmaq üsulları bir çox dövlətlər tərəfindən tətbiq olunsa da, onlar sirr kimi qorunub saxlanılır. Bunlar haqqında açıq, insanlara əlçatan məlumatlar yoxdur. Haqqında mücərrəd fikirlərdən başqa sözlər demək mümkün deyil.

Digər üsul isə yaşıllıq zonalarının genişləndirilməsidir. Meşələrin salınması, ağac əkilməsi metodlarının tətbiqindən söhbət gedir. Çünki bitkilər atmosferin oksigenlə zənginləşdirilməsində xüsusi rola malikdir. Havada rütubətin miqdarı da oksigenin miqdarı ilə düz mütənasibdir. Bu üsullarla müəyyən qədər havada rütubətin faizini qaldırmaq mümkündür. Bu isə quraqlığın qarşısını alır. Lakin bu metodların da geniş formada tətbiqi mümkün deyil. İnsanlar, xüsusilə bizim ölkəmizdə yaşıllıq zonalarının artırılması, ağac əkilməsi kimi aksiyalara xüsusi diqqət yetirirlər. Bu aksiyalar mütəmadi olaraq ekoloqlar, dövlət orqanları tərəfindən həyata keçirilir. Amma bunlar o qədər də quraqlığın qarşısını alacaq qədər geniş miqyaslı deyil. Meşələrin bərpası kimi aksiyalar hələ ki geniş miqyas almayıb. Hələ ki, real praktiki nəticələr əldə olunmayıb”.

”Su itkisinin qarşısının alınması üçün isə ictimai tərbiyə olmalıdır. İctimai tərbiyə üçün mətbuatın bu yöndə rolu danılmazdır. İlk növbədə televiziya olmaqla digər mətbuat orqanları, media bu işdə xüsusi rol oynaya bilər. Dəniz suyundan içməli su alınması üsulları dünya praktikasında mövcuddur. Bizim ölkədə də hətta Hacıqabul, Ələt tərəfdə belə bir sutəmizləyici qurğu tətbiq edildi. Prezident onun açılışında iştirak etdi.

Duzlu sudan içməli su alınması sutəmizləyici qurğular vasitəsilə həyata keçirilir. Yerli əhali həmin təmizlənmiş sudan içməli su kimi istifadə edir. Sutəmizləyici zavodların yenilərinin işə salınması istisna deyil. Əlbəttə, bu, Sumqayıtda da, digər dəniz sahili ərazilərdə də ola bilər. Dəniz suyunun təmizlənərək ondan içməli suyun alınması çox faydalı işdir.

Daha yaxşısı isə Kür suyunun təmizlənərək insanlara içməli su kimi verilməsidir. Digər tərəfdən dəniz suyunun təmizlənməsi təkcə içməli deyil, həm də suvarma üçün yararlı suların da əldə olunması ilə nəticələnə bilər. Həm suvarma məqsədilə, həm də içməli su üçün istifadə oluna bilər” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

## “Qalatasaray” ulduz futbolçunu satışa çıxardığını açıqlayıb



“Qalatasaray” klubu ulduz futbolçusunu mövsümün sonunda satmağı planlaşdırır. SİA xəbər verir ki, məlumata görə, Türkiyə nəhəngi Kerem Aktürkoğlu ilə yolları ayırmaq qərarına gəlib. ”Qalatasaray” rəsmiləri Kerem üçün 10 milyon avro təklif edən komandalarla danışıqlara başlayacaqlarını bildiriblər. Qeyd edək ki, ”Qalatasaray” klubu Kerem Aktürkoğlunu heç bir ödəniş etmədən heyətinə qatmışdı.

# May ayında Əfv olacaq?

## *KOMİSSİYA ÜZVÜ AÇIQLADI*



“Aprel ayının 3-dən Əfv Komissiyası öz işinə başlamışdır. Ötən müddət ərzində Əfv Komissiyasının üst iclası keçirilmiş, 400-ə yaxın müraciətə baxılmış və müvafiq rəylərin hazırlanması barədə qərarlar qəbul edilmişdir”. Bu sözləri SİA-ya açıqlamasında ”Konstitusiya” Araşdırmalar Fondunun prezidenti, Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü Əliməmməd Nuriyev deyib.

Əliməmməd Nuriyev sözlərinə belə davam edib: ”Əfv üçün müraciət edən şəxslər kateqoriyası çox müxtəlifdir və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində təsbit olunmuş bütün müvafiq maddələrin əksəriyyəti ilə bağlı Əfv Komissiyasına müraciətlər daxil olub. Əfv komissiyasının katibliyi eyni zamanda Prezident Administrasiyasının hüquq-mühafizə orqanlarının iş şöbəsində Əfv sektoru fasiləsiz işləyərək daxil olan müraciətləri emal edir və müvafiq qərarlar hazırlayaraq onu Əfv Komissiyasının sədri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə təqdim edir. Samir müəllim tərəfindən də iclaslar çağırılır, Əfv Komissiyası öz işini davam etdirir.

Növbəti iclasımız bugün olacaq. Əlbəttə, daxil olan müraciətlərə baxılması vaxtından asılı olaraq gələcəkdə, o cümlədən may ayında əfv sərəncamının olması gözlənilə bilər. Əfv sərəncamını nə vaxt imzalamaq Prezidentin qərarından asılı olan bir məsələdir. Ona görə konkret olaraq hər hansı bir tarix söyləmək doğru olmazdı. Əfv komissiyası öz işlərini davam etdirir və müraciətlərə baxır”.

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**